QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 063 (5535) 4 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**





# Xalqımız firavan gələcəyə səs verəcək!



3

**Milli Məclisin plenar iclasında 25 məsələ müzakirə olunub**



3

**"Mühacir adı altında bəzi şəxslər erməni lobbisinin dəstəyi ilə dövlətimizin əleyhinə fəaliyyət göstərirlər"**



14

**Almaniyanın ZDF telekanalı Ermənistan reallığını ifşa etdi**






## “Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Əbdülhəmid Gül Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hüquq mühafizə orqanları, o cümlədən Ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunularaq bildirildi ki, Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcək. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.



## “Ekvador Azərbaycan ilə ikitərəfli münasibətləri möhkəmləndirməkdə maraqlıdır”

*Prezident İlham Əliyev Ekvadorun xarici işlər nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Maria Fernanda Espinosa Qarses Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarını Prezident İlham Əliyevə çatdırdı və Bakıda keçirilən Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakından məmnunluğunu ifadə etdi. Qonaq Azərbaycanın misli görünməmiş dərəcədə inkişafa nail olduğunu qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə çox mühüm bir mövqeyə malik olmasının önəmini vurğuladı. O qeyd etdi ki, Ekvador Azərbaycan ilə ikitərəfli münasibətləri möhkəmləndirməkdə maraqlıdır. İqtisadi əməkdaşlıqdan danışan Maria Fernanda Espinosa Qarses Ekvadorun da neft ixrac edən ölkə olduğunu vurğulayaraq bir çox sahələrdə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Dövlətimizin başçısı Ekvador Respublikasının xarici işlər naziri Maria Fernanda Espinosa Qarsesin Qoşulmama Hərəkatı çərçivəsində nazirlər konfransında iştirakının önəmini qeyd edərək, bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasına üzvlüyə səsvermə zamanı Ekvadorun ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini qeyd etdi.

Söhbət zamanı iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Ekvador Respublikasının Prezidenti Lenin Morenonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ekvador Prezidentinə çatdırmağı xahiş etdi.

# Milli Məclisin plenar iclasında 25 məsələ müzakirə olunub

***Aprelin 3-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, 25 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar günün aktual məsələlərinə münasibət bildirdilər. Xaricdə məskunlaşmış bəzi soydaşlarımızın sosial şəbəkələrdə və saytlarda yer alan qeyri-etik çıxışları yolverilməz sayıldı və şiddətlə pislənildi. Çıxışlarda vurğulandı ki, Vətənin, xalqın, ordunun şərəf və ləyaqətini qorumaq, milli maraqları və millətin mənafeyini nəzərə almaq siyasi baxışlarından asılı olmayaraq hər bir vətəndaşın borcudur.***



Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycan hökuməti ilə Əfqanıstan hökuməti arasında hava əlaqəsi haqqında, sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişləri şərh etdi. Parlament hər iki sazişi təsdiqlədi.

Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov 2005-ci il 3 may tarixli Qanunla təsdiq olunmuş "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamə"yə təklif edilən dəyişikliklər barədə məlumat verdi. Bildirdi ki, komissiyanın əsas vəzifələrinə və əsas hüquqlarına dair maddələrə edilən dəyişiklik qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda edilmiş dəyişikliklərin ötən ilin oktyabr ayından etibarən tətbiqi ilə əlaqədardır.

Deputatlar qanunun qəbulunu məqsədəuyğun saydılar.

Sonra Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Hidrometeorologiya fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələni təqdim etdi. Nəzərə çatdırıldı ki, sənəd qanunvericiliyin uyğunlaşdırılması məqsədilə hazırlanıb. Parlament qanun layihəsinə müsbət münasibət bildirdi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Gəmiçilik sahəsində xidmətlərə görə" medalının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda zəruri dəyişiklikləri şərh etdi. Bildirdi ki, hər iki medal milli dövlətçilik atributlarını əks etdirir. Məsələ müzakirə olundu və qanun qəbul edildi.

Gündəlikdəki növbəti dörd qanun layihəsi Milli Məclisə bir zərfdə daxil olmuşdu. Bildirildi ki, "Banklar haqqında", "Kredit büroları haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda və Mülki Məcəllədə edilən dəyişikliklər 2016-cı ilin oktyabrından etibarən tətbiq olunan "Kredit büroları haqqında" Qanunla əlaqədardır. Bu dəyişikliklər banklar tərəfindən borcalanlar haqqında məlumatın Mərkəzləşdirilmiş kredit reyestrinə verilməsi mexanizmini dəqiqləşdirmək, eləcə də reyestrdə toplanan məlumatların qorunmasını təmin etmək məqsədi daşıyır. Plenar iclasda rəy və təkliflər dinlənildi. Səsvermə zamanı deputatlar qanun layihələrinin dördünə də müsbət münasibət bildirdilər.

İclasda Mülki Məcəllədə dəyişikliklərə dair daha bir qanun layihəsinə də baxıldı. Qeyd edildi ki, məqsəd hüquqi şəxs adından çıxış edən şəxsin məsuliyyətinin artırılmasıdır. Qanun qəbul olundu.

Qanunvericiliyin uyğunlaşdırılması baxımından "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" və "Valyuta tənzimi haqqına" qanunlara təklif olunan dəyişikliklər də müsbət qarşılandı.

Parlament "Lisenziyalar və icazələr haqqında" Qanuna uyğun olaraq hazırlanmış iki sənəddə - Ticarət Gəmiçiliyi Məcəlləsində və "Yerin təki haqqında" qanunda dəyişiklik edilməsini də məqsədəmüvafiq saydı.

Sonra Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə bir zərfdə daxil olmuş beş məsələyə baxıldı. Qanunvericiliyin təkmilləşdirilməsi və dəqiqləşdirilməsi baxımından Şəhərsalma və Tikinti Məcəlləsinə, Mülki Məcəlləyə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İcra haqqında" və "Su təchizatı və tullantı suları haqqında" qanunlara təklif edilən dəyişikliklər barədə məlumat dinlənildi. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyuldu və qəbul edildi.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deputatlara məlumat verdi ki, "Tibbi sığorta haqqında" Qanunun 12-ci və 16-cı maddələrində aparılan dəyişikliklər "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 24 noyabr tarixli Prezident Fərmanına uyğun olaraq "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin yaradılması ilə əlaqədardır, həmçinin İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır. Sənəd səsə qoyuldu və qəbul edildi.

Deputatlar İnzibati Prosessual Məcəllənin 38-ci maddəsində, "Fərdi məlumatlar haqqında" Qanunun 13-cü, İnzibati Xətalar Məcəlləsinin 28-ci və 43-cü maddələrində edilən dəyişikliklərə də razılıq verdilər.

Sonra parlamentə "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" yeni qanun layihəsi təqdim olundu. Komitə sədri Əli Hüseynli bildirdi ki, zamanın tələbinə əsasən Azərbaycan qanunvericiliyində mövcud olan daktiloskopik qeydiyyat haqqında qanun genişləndirilib və layihəyə genom qeydiyyatı məsələsi də əlavə olunub. Dörd fəsil, 21 maddədən ibarət olan bu qanun ölkəmizdə insan şəxsiyyətinin eyniləşdirilməsi üçün aparılacaq dövlət daktiloskopik və genom qeydiyyatının məqsədini, prinsiplərini və növlərini müəyyənləşdirəcək, bu sahədə yaranan ictimai münasibətləri tənzimləyəcək. Qanun cinayətkarlığa və terrorizmə qarşı mübarizədə, həmçinin itkin düşmüş şəxslərin tapılmasında səmərəli nəticə əldə etməyə töhfə verəcək.

Fikir mübadiləsində qanun layihəsi konseptual baxımdan məqbul sayıldı və səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

İclasın yekununda elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli ikinci oxunuşda müzakirəyə çıxarılmış "Peşə təhsili haqqında" qanun layihəsi barədə ətraflı məlumat verdi. Sənəd əsas kimi qəbul edildi və maddə-maddə müzakirəyə başlanıldı. Deputatlar müsbət fikirlərini, təkliflərini parlamentin diqqətinə çatdırdılar. Qeyd olundu ki, ölkəmizin inkişaf etdiyi, yeni istehsal sahələrinin yarandığı indiki dövrdə peşə təhsilinə çox ehtiyac var. Qanun layihəsində innovasiya və sahibkarlıq fəaliyyəti, müasir dövrün çağırış və inkişaf tendensiyaları da nəzərə alınıb.

Plenar iclasda "Peşə təhsili haqqında" qanun layihəsi öncə fəsil-fəsil, sonra bütövlükdə səsə qoyuldu və ikinci oxunuşda qəbul edildi. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Kamran Nəzərova "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Biləsuvar rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Siyavuş Novruzov: "Mühacir adı altında bəzi şəxslər erməni lobbisinin dəstəyi ilə dövlətimizin əleyhinə fəaliyyət göstərirlər"

***"Azərbaycanda aktiv siyasi proseslərin olduğu bir vaxtda bir qrup şəxs Azərbaycan dövlətinin, Prezidentinin əleyhinə qarayaxma kampaniyası ilə məşğuldur". Bu fikri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin bu gün keçirilən iclasında çıxışı zamanı deyib.***



S.Novruzov bildirib ki, bu kampaniya erməni lobbisinin dəstəyi ilə həyata keçirilir. Onun sözlərinə görə, mühacir adı altında bəzi şəxslər erməni lobbisinin dəstəyi ilə dövlətimizin əleyhinə fəaliyyət göstərirlər.

"Onlar erməni lobbisinin dəstəyi ilə Azərbaycana qarşı qarayaxma ilə məşğuldur. Bu vaxta qədər bir dəfə də olsun Ermənistan səfirliyi qarşısında aksiya keçirməyən şəxslər Fransada Azərbaycan səfirliyi qarşısında aksiya keçirirlər. Ermənilər artıq istirahət edə bilərlər, çünki onların funksiyasını yerinə yetirənlər var. Çox təəssüf ki, onların Azərbaycan dövləti və xalqına qarşı apardıqları siyasət ermənilərdən betərdir. Sapı özümüzdən olan baltalar beləlrinə deyilir. Ölkəmizdə siyasi mübarizə aparmaq istəyənlər üçün heç bir məhdudiyyət yoxdur. Amma düşmənin dəyirmanına su tökmək, erməni mediasında məşhurlaşmaq ancaq bu insanlara yaraşır. Vətənə, xalqa, orduya qarşı müxalif olmaq olmaz, azərbaycanlılara qarşı soyqırım törətmiş xalqla əlbir olmaq olmaz"-deyə, YAP İcra katibinin müavini vurğulayıb.

S.Novruzov qeyd edib ki, hər kəs, o cümlədən millət vəkilləri bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoymalıdır. Onun fikrincə, cəmiyyətimiz bu məsələdə həmrəy olmalıdır: "Bu baxımdan, xalqın seçdiyi millət vəkilləri də həmin ünsürlərə qarşı mövqeyini ortaya qoymalıdır. Bu məsələdə susmaq olmaz".

## "Aprel döyüşləri Ermənistanın müdafiə sisteminin yalnız sözdən ibarət olduğunu göstərdi"




Azərbaycan ordusunun 2016-cı ilin aprelində keçirdiyi hərbi əməliyyatlar ermənilər üçün sürpriz oldu. Ermənistanda hər kəs bu ölkənin müdafiə sisteminin yalnız sözdən ibarət olduğunu gördü. SİA xəbər verir ki, bu fikirlər Ermənistanın "ArmenianReport" və "1in" xəbər saytlarında Aprel döyüşləri ilə bağlı yayılmış yazıda yer alıb.

Yazıda qeyd olunur ki, Aprel döyüşləri Ermənistan ordusu üçün ağır itki ilə nəticələndi. Hərbi əməliyyat ermənilərin dərin yuxuda olduğunu, ölkənin təhlükəsizlik və müdafiə strategiyasının olmadığını ortaya qoydu. Müəllif, həmçinin qeyd edir ki, Aprel döyüşlərindən sonra ölkədə nələrinsə dəyişməsi gözlənilirdi. Lakin bu, belə olmadı. Yeni strategiyaların və konsepsiyaların hazırlanması zəruri olduğu halda bu, gözlənilən kimi olmadı. Yazıda o da diqqətə çatdırılır ki, bu gün Ermənistan ordusunu hökumət yox, fərdlər idarə edir. Ölkədə xarici siyasət, hüquq, iqtisadiyyat, sosial sahələrdə köklü işlərin görülməsinə ehtiyac olduğu halda bu, edilmir. Nəticədə Ermənistanda demoqrafiq vəziyyət getdikcə pisləşir. Dördgünlük müharibənin acısını yaşayan Ermənistanın hələ də 25 illik yuxusuna davam etdiyini yazan müəllif bunun xalqın gələcəyini məhv etdiyini vurğulayır. Ermənistan iqtidarı bilməlidir ki, növbəti zərbə Aprel müharibəsindəkindən daha ağır ola bilər.




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
4 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Xızı seçiciləri "İlhamla irəli" deyir

Dünən 11 aprel prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçi-





vəsində Xızı rayonun Altıağac qəsəbəsində seçicilərlə növbəti görüş keçirildi. Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xızı rayon şöbəsinin sədri Fərrux Haqverdiyev Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində xalqa və dövlətə göstərdiyi əvəzsiz xidmətlərindən, beynəlxalq aləmdə Azərbaycanın artan nüfuzundan danışdı. Bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxsaylı müsbət işlər əhalinin sosial vəziyyətinin getdikcə yaxşılaşması üçün əsaslı zəmin yaradıb.

F.Haqverdiyev xızılıların hər zaman dövlətə, dövlətçiliyə sədaqətli olduqlarını, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə dəstək verdiklərini bildirdi. Təşkilat sədri çıxışının sonunda seçiciləri 11 aprel seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev ötən 15 il ərzində Azərbaycanda əldə olunmuş sosial-iqtisadi inkişafdan, ölkənin strateji valyuta ehtiyatlarının artmasından, vətəndaşların sosial-rifahının yaxşılaşması, ictimai həyatın bütün sahələrinin kompleks inkişafı, ordu quruculuğu haqqında seçicilərə ətraflı məlumat verdi. Bildirdi ki, hər zaman Prezident İlham Əliyev xalqını - vətənini sevən lider olub: "Qədirbilən Azərbaycan xalqı da hər zaman Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq olub və bunu Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasətinə dəstək verməklə sübut edib".

B.Quliyev əldə olunan uğurların davam etdirilməsi üçün seçiciləri 11 aprel 2018-ci il prezident seçkilərində fəal olmağa və konstitusion hüququmuzdan istifadə edərək seçki məntəqələrinə gedərək Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə seçicilər adından çıxış edənlər 11 aprel 2018-ci il prezident seçkilərində daha fəal iştirak edəcəklərini Azərbaycana bugünkü uğurları qazandıran Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

Görüşün sonunda bir qrup partiya fəalına YAP Xızı rayon təşkilatının Fəxri Fərmanları təqdim edildi.

## Zaqatalada zirvə görüşü keçirilib

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin təşkilatçılığı ilə prezident seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Zaqatala şəhər stadionunda zirvə görüşü-mitinq-konsert keçirilib. Toplantıya "İlhamla irəli" şüarları ilə 15 min zaqatalalı seçici böyük ruh yüksəkliyi ilə qatılıb.








Görüşdə YAP Seçki Qərargahının Zaqatala rayon şöbəsinin, rayon təşkilatının sədri Habil Qurbanov çıxış edərək, bildirib ki, bu gün hər bir Zaqatala sakini, bu möhtəşəm toplantıya gələn hər bir kəs ömrünün ən xoş anlarını yaşayır: "Bunu sizin qəlbinizdəki inamdan, gözünüzdəki sevincdən duymaq olur. Böyük ümidləriniz, sevinciniz, alqışlarınız hər birimiz üçün əziz olan, müdrik bir insana - Cənab İlham Əliyevə olan sonsuz məhəbbətin, ehtiramın, sədaqətin ifadəsidir. Ulu Öndərimizin bəşəri ideyalarını uğurla davam etdirən Cənab İlham Əliyev Azərbaycanı sosial-iqtisadi cəhətdən sürətlə inkişaf edən bir ölkəyə çevirməklə bərabər, beynəlxalq aləmdə nüfuzumuzu yüksəldib, dövlətimizi bütün dünyada tanıtdırıb, ölkədə ictimai-siyasi sabitlik hökm sürür, vətəndaşların təhlükəsizliyi, firavan həyatı üçün nə varsa həyata keçirib. Məhz buna görə də, Cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz fəaliyyəti, hesabagəlməz xidmətlərini nəzərə alınaraq, Onun Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülüb və sözsüz ki, bu təklif bütün xalqın, dövlətimizi azad və xoşbəxt görmək istəyən hər bir kəsin ürəyindəndir. Qürurla deməк olar ki, Zaqatala bu gün respublikanın ən inkişaf edən, tanınmaz dərəcədə dəyişən və ölkənin iqtisadi həyatında öndə gedən rayonlardan biridir". Rayon şöbəsinin sədri seçiciləri yüksək fəallıq göstərərək, prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə millət vəkili Kamilə Əliyeva, Elşən Musayev çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində həyata keçirilmiş işlər və qazanılmış uğurlu nailiyyətlər barədə öz fikirlərini bölüşüblər və seçiciləri 11 aprel 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Tədbir Azərbaycanın görkəmli incəsənət xadimlərinin iştirakı ilə geniş konsert proqramı ilə başa çatıb.

## Biləsuvar seçiciləri "İlhamla irəli" deyir

YAP Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin üzvləri partiyanın təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun mərkəzi stadionunda seçicilərlə möhtəşəm zirvə görüşü keçiriblər. Zirvə görüşünü YAP Biləsuvar rayon təşkilatının sədri Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin sədri Kamil Mirzəyev açaraq bildirdi ki, Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarının ən layiqli davamçısı olaraq daim ölkəmizin inkişafı və xalqımızın rifahı üçün çalışır. Onun həyata keçirdiyi iqtisadi və siyasi islahatlar dövlətimizin inkişafına və qüdrətlənməsinə xidmət edir. Məhz bu inkişafın davamlı olması üçün Azərbaycan xalqı Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

Zirvə görüşündə Milli Məclisin deputatı Xanhüseyn Kazımlı çıxış edərək, bildirdi ki, Cənab İlham Əliyevin seçki kampaniyası ilə əlaqədar yerlərdə seçicilərlə çoxsaylı görüşlər, keçirilmişdir. Keçirilən görüşlər bir daha əminlik yaradır ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi, birmənalı olaraq, xalqın namizədidir: "Əminliklə deyə bilərəm ki, biləsuvarlı seçicilər 11 apreldə keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər".

Milli Məclisin deputatı Hadi Rəcəbli tədbirdə çıxış edərək, bildirdi ki, Biləsuvar əhalisi həmişə dövlətə və dövlətçiliyə sədaqətli olmuşlar: "11 aprel seçkisində Prezident İlham Əliyevin namizədliyinin ölkə vətəndaşları tərəfindən böyük səs çoxluğu ilə dəstəklənməsi həqiqətdir. Çünki ölkəmizin








bundan sonrakı inkişafı, məhz Cənab İlham Əliyevdən asılıdır".

Zirvə görüşündə millət vəkili Mirkazım Kazımov çıxış edərək, bildirdi ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində də böyük bir yol qət edib. 2016-cı ilin aprelində işğalçı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlara verilən cavab, işğal altında olan bir sıra ərazilərimizin azad edilməsi, Lələpəyə Azərbaycan bayrağının sancılması Azərbaycan Ordusunun gücünü hər düşmən ölkəyə, həm də bütün dünyaya göstərdi. Natiq biləsuvarlıları 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə Yeni Azərbaycan Partiyası təbliğat qrupunun üzvü Azərbaycan Dillər Universitetinin müəllimi, filologiya elmləri doktoru, professor Fikrət Cahangirov çıxış edərək, bildirdi ki, 2003-cü ildən keçən müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi "ASAN xidmət" mərkəzlərinin yaradılması, Azərbaycanın dünyada multikultural və tolerant mərkəzə çevrilməsi, beynəlxalq neft və qaz layihələrinin həyata keçirilməsində möhtəşəm rolu barədə seçicilərə ətraflı məlumat verdi. Natiq bütün biləsuvarlı seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Zirvə görüşündə çıxış edən biləsuvarlılar Cənab İlham Əliyevi qətiyyətli dövlət başçısı, müdrik lider kimi dəyərləndirərək, 11 apreldə, məhz Ona səs verəcəklərini bildirdilər.

Ardı Səh. 5

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 4

## Binəqədi seçiciləri uğurlu inkişafa səs verəcəklər

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun təhsil işçiləri ilə görüş keçirilib. Görüşdən öncə, iştirakçılar rayon təşkilatı tərəfindən prezidentliyə na-





mizəd İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində hazırlanan videoçarxlara baxıblar. Daha sonra görüş rəsmi hissə ilə davam etdirilib.

Görüşü giriş sözü ilə açan Binəqədi rayon təşkilatının sədri, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov 11 aprel tarixində keçiriləcək prezident seçkilərinin dövlətimizin və xalqımızın həyatında mühüm siyasi hadisə olduğunu bildirib.

Prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin uğurlu siyasi strategiyası haqqında ətraflı məlumat verib. Ölkəmizin bütün sahələr üzrə yüksələn xətlə inkişaf etdiyini və bu inkişafın dövlətçiliyimizin təhlükəsizliyinin, sabitliyimizin daha da möhkəmləndirilməsinə zəmanət verdiyini söyləyib.

R.Göyüşov seçiciləri Cənab İlham Əliyevə dəstək olmağa və səs verməyə çağırıb.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən təhsil siyasətindən danışıb. Təhsilin inkişafı dövlət siyasətinin daimi prioritetlərindən olub. Orta ümumtəhsil məktəbləri ilə yanaşı, ali və orta-ixtisas təhsil müəssisələrinin inşası, təmiri, yenidən qurulması, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi üçün daim səylə çalışılıb.

E.İbrahimov bildirib ki, bütün sahələrdə olduğu kimi, təhsilin inkişafı da, bilavasitə Cənab Prezidentin nəzarətindədir. O, bu uğurlu siyasətin davamı üçün seçiciləri Cənab İlham Əliyevə dəstək olmağa çağırıb.

Millət vəkili Madar Musayev çıxışında ölkəmizdə, o cümlədən, Binəqədi rayonunda həyata keçirilən təhsil islahatlarından danışıb. Daha sonra bütün sahələr üzrə əldə olunan nailiyyətlərdən söz açıb. Sürətli və dayanıqlı iqtisadi inkişafın Azərbaycanı regionda lider ölkəyə çevirdiyini, vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində önəmli nəticələrə nail olunduğunu, ölkənin simasının regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası sayəsində köklü surətdə dəyişdiyini bildirib. Aparılan iqtisadi islahatlar nəticəsində, qeyri-neft məhsullarının istehsalının və ixracının əhəmiyyətli dərəcədə artdığını, bütün bunların təhsilin inkişafına dövlət büdcəsindən ayrılan vəsaitlərin ilbəil artmasına şərait yaradır. M.Musayev çıxışında bütün uğurları nəzərə alaraq, ölkəmizin tərəqqisinin və firəvanlığının davamlı olması naminə gələcəyə doğru "İlhamla irəli"ləməyə çağırıb.

YAP Binəqədi rayon təşkilatının sədr müavini Hüseyn Əsgərov çıxışında qeyd edib ki, təhsil sahəsində aparılan islahatlar, qəbul olunan dövlət proqramları: 2005-2009-cu illərdə məktəblərin avadanlıqlarla təmin olunması, 2008-2012-ci illərdə məktəb tikintisi, təhsil sisteminin informasiyalaşdırılması, 2011-2021-ci illərdə Azərbaycanda təhsilin inkişafı üzrə Milli Strategiyanın hazırlanması, müsabiqələrin keçirilməsi bir daha təhsilin dövlət başçısının diqqət mərkəzində olduğunun göstəricisidir. H.Əsgərov görülən uğurlu işlər və qarşıda duran perspektivlər naminə bütün həmkarlarını Cənab İlham Əliyevin ətrafında sıx birləşməyə və Ona səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər Adil Həmidov, Yusif Alıyev, Təranə Abulova və başqaları təhsil işçiləri və tələbələr üçün yaradılan şəraitdən danışaraq, qarşıdan gələn prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Şəkililərin seçimi Cənab İlham Əliyevdir!

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 4200 əhalisi və





2202 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Birinci Biləcik, İkinci Biləcik və Baqqal kəndlərində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə növbəti görüş keçirilib. Görüşü, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü titanik işlərdən danışıb. Natiq vurğulayıb ki, Prezident İlham Əliyevin müdirik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Biləcik və Baqqal kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Elmira Hacıyeva, Sədrəddin Bədiyev və Şahid İsmayılov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, müdrik və qətiyyətli siyasəti, bütövlükdə, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə çıxış edən kənd sakinləri artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixdə xalqımızın layiqli oğlu İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.

## Göyçaylılar Cənab İlham Əliyevə səs verəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Qarabaqqal kənd sakinləri ilə keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov Prezident İlham Əliyevin 15 il ərzində gördüyü misilsiz işlərdən söz açaraq bildirib ki, xalqımızın xoşbəxt, parlaq, işıqlı gələcəyinin təminatçısı, bilavasitə Cənab İlham Əliyevdir.





Çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov, qeyd edib ki, təbliğat-təşviqat mərhələsi çərçivəsində keçirilən görüşlərdə yüksək seçici fəallığı müşahidə edilir və seçicilər Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevi dəstəklədiklərini, birmənalı şəkildə ifadə edirlər. "Seçicilər Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən nailiyyətləri yüksək qiymətləndirirlər. Onlar inkişaf və tərəqqinin davamlı olması, yeni nailiyyətlərin əldə edilməsi üçün Cənab İlham Əliyevə səs verəcəklərini bildirirlər" deyən E.Nəsirov vurğulayıb ki, həqiqətən də, xalq inkişaf və sabitlik üçün öz Prezidentinə - Cənab İlham Əliyevə səs verməlidir.

Daha sonra çıxış edən millət vəkili Sabir Hacıyev dövlət başçımız Cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətindən söz açaraq, bildirib ki, bu gün müstəqil Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də mədəni inkişaf baxımından dünyanın qüdrətli dövlətləri sırasına qəbul edilir. "Prezident İlham Əliyevin cəsarətli və müdrik siyasəti sayəsində bugünkü qüdrətli Azərbaycan mövcuddur" deyə qeyd edən deputat bildirib ki, göyçaylılar da xalqımızın xoşbəxt gələcəyi üçün Cənab İlham Əliyevə səs verəcəklərinə əmindirlər.

Çıxış edən kənd sakinləri Məmmədova Rəhilə, Əhmədov Anar İsmayılov İsris və başqaları Cənab İlham Əliyevin Azərbaycanın inkişafı və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətləri haqqında məlumat verdilər. Bildiriblər ki, bütün göyçaylılar Cənab İlham Əliyevə böyük hörmət, inam və etimad bəsləyir və bunu 11 apreldə İlham Əliyevə səs verməklə bir daha sübut edəcəklər.

## İsmayıllı seçiciləri alternativsiz Liderə səs verəcəklər

11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş rayonun Diyallı kəndində keçirilib.

Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edən, demokratik, sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanmış və yüksək beynəlxalq nüfuza malik ölkəyə çevrilmişdir. Azərbaycan Cənubi Qafqaz regionunun siyasi, iqtisadi, humanitar mərkəzi statusunu möhkəmləndirmiş, qlobal problemlərin həllində və beynəlxalq münasibətlər sistemini tənzimləyən qərarların qəbulunda ciddi rol oynamağa başlamışdır.

Ardı Səh. 6

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 5

YAP rayon təşkilatının sədri qeyd edib ki, bu günə kimi seçicilərlə keçirilən görüşlər, onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Taleh Salehov, Lətifə Əliyeva və Xuraman Qurbanova çıxış edərək Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində həyata keçirilən işlər və qazanılan nailiyyətlər barə-





də öz fikirlərini bölüşüblər. Natiqlər seçiciləri 11 aprel 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının və xalqın vahid namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Görüşdə seçicilər adından çıxış edən Diyallı kənd sakinləri Məzahir Tapulov, Ramazan Bağırov, Şəmsiyyə Əhmədova, Əkbər Şəfaqətov və başqaları Cənab İlham Əliyevi, birmənalı olaraq, alternativsiz namizəd kimi gördüklərini qeyd edərək Azərbaycanın sürətli inkişafının gələcək təminatçısı kimi ölkə rəhbərinin uğurlu fəaliyyətini vurğulayaraq, hamılıqla Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Biləsuvar seçiciləri Cənab İlham Əliyevə "HƏ" deyir

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliye-





vin təbliğat kampaniyası çərçivəsində növbəti görüş Biləsuvar rayonu Yuxarı Ağalı və Bağbanlar kəndlərinin seçiciləri ilə keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin təbliğat-təşviqar qrupunun üzvü Əjdər Niftiyev prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə seçiciləri tanış edib. Natiq qeyd edib ki, 2003-2018-ci illər ərzində Cənab İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü titanik işlər Azərbaycanın inkişafına çox böyük təkan vermişdir. Ə.Niftiyev əminliklə bildirdi ki, Biləsuvar rayonunun çoxsaylı Yuxarı Ağalı və Bağbanlar kəndlərinin seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə YAP Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Akif Kazımov çıxış edərək, bildirib ki, 2003-cü ildən keçən müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar, Azərbaycanın dünyada multikultural və tolerant mərkəzə çevrilməsi, beynəlxalq neft və qaz layihələrinin həyata keçirilməsində möhtəşəm rolu barədə seçicilərə ətraflı məlumat verdi. Natiq bütün Yuxarı Ağalı və Bağbanlar kəndlərinin seçicilərini 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə iştirak edən seçicilərdən Xanağa Nəcəfov, Ağacan Sadıqov və Adilə Vəliyeva çıxış edərək, bildiriblər ki, 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində ölkə Prezidenti Cənab İlham Əliyevə səs verəcəklər.

## Balakənlilərin seçimi Cənab İlham Əliyevdir

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Balakən rayonunda seçicilərlə görüşlər davam edir. Növbəti görüş rayonun təhsil və mədəniyyət işçiləri ilə keçirilib.





Görüşü Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev açaraq, YAP-ın namizədi Cənab İlham Əliyevin 2003-cü ildən etibarən ölkə başçısı kimi genişmiqyaslı və çoxşaxəli fəaliyyətindən, Onun müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının ildən-ilə daha da yaxşılaşdırılması istiqamətində apardığı uğurlu daxili və xarici siyasətdən danışıb. A.Balayev bildirib ki, ölkəmizdə reallaşdırılan ardıcıl və sistemli siyasi, iqtisadi və sosial islahatlar, Azərbaycanın istər regionda, istərsə də beynəlxalq səviyyədə tarixi nailiyyətlər əldə etməsinə səbəb olub.

Rayon şöbəsinin sədri onu da bildirib ki, balakənlilər Cənab İlham Əliyevə böyük hörmət, inam və etimad bəsləyir, müdrik Şəxsiyyətin yenidən Prezident seçilməsinə yekdilliklə səs verəcəklər.

Görüşdə Milli Məclisin üzvləri Nəsib Məhəməliyev və Kamilə Əliyeva çıxışlarında 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi möhtəşəm tarixi nailiyyətlərdən danışıb. İslahatların ardıcıllığını, uğurların davamlılığını təmin etmək üçün seçiciləri hamılıqla 11 apreldə seçki məntəqələrinə gedərək, Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilərdən Çinarə Bazarova, Şəfiqə Tütünçiyeva, Şaban Abdullayev, Cəmilə Məmmədova çıxış edərək, 11 aprel tarixində seçki məntəqələrinə gələrək, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Cənab İlham Əliyevlə möhtəşəm uğurlara doğru!

Oğuz rayonunda Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Kərimli və Qarabaldır kəndlərindən olan seçicilərlə görüş keçirilib.



Görüşdə YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov çıxış edərək vurğulayıb ki, indiyədək ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri ədalətli, şəffaf və demokratik şəraitdə baş tutub və beynəlxalq miqyasda təqdirlə qarşılanıb: "Hazırkı reallıqlar, yəni mövcud şərait, məhz aprelin 11-də keçiriləcək prezident seçkilərinin də demokratik standartlara uyğun baş tutacağını, Azərbaycanın demokratik ənənələrə sadiq qalacağını söyləməyə əsas verir. Cənab İlham Əliyevin 2003-cü ildən indiyə qədər ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan sabitlik adası kimi səciyyələndirilib".

Görüşdə çıxış edən Milli Məclisin komitə sədri Aqiyə Naxçıvanlı qeyd edib ki, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə Azərbaycan hərtərəfli və sürətli inkişaf tempi əldə edib. Ölkə daxilində bütün sahələr üzrə əhalinin sosial-rifah halının yaxşılaşdırılmasına xidmət edəcək uğurlu siyasət reallaşdırılıb.

YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon təbliğat-təşviqat qrupunun üzvləri Emin Əzimli və Fərrux Əbilov çıxış edərək, vurğulayıblar ki, prezident seçkilərinə sabitlik şəraitində gedir və qazanılan bütün uğurlar xalqın alternativsiz namizədi olan Cənab İlham Əliyevin növbəti möhtəşəm və parlaq qələbəsini təmin edəcək mühüm faktorlardan biri olacaq.

Görüşlərdə çıxış edən seçicilərdən Sahib Camıyev, Ələddin Nəcməddinov, Həzi Hacıbabayev Cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini qeyd edərək, seçiciləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.

## Qubalı seçicilərlə görüşlər uğurla davam edir

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun Küpçal, Vladimirovka, Aşağı-Atuc və Güləzi inzibati ərazi dairələrində seçicilərlə növbəti görüşlər keçirilib.

Görüşlərdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov günü-gündən güclənən, qüdrətlənən Azərbaycanın daha bir əhəmiyyətli hadisə ərəfəsində olduğunu bildirib. Artıq bir neçə gündən sonra xalqımızın növbəti dəfə prezident seçkilərində iştirak edəcəyini bildirərək, ölkədə mövcud olan xalq və iqtidar birliyinin hökm sürdüyünü diqqətə çatdırıb: "Məhz bu sarsılmaz birliyin nəticəsidir ki, ölkəmiz son 15 ildə sürətlə inkişaf etmiş, xalqımızın sosial-rifah halı daha da yaxşılaşdırılmışdır. Bu gün ölkəmizdə mövcud olan sabitlik, güclü iqtisadiyyat gələcək inkişafın əsasını təşkil edir".

Ardı Səh. 7

11 Aprel 2018
www.yap.org.az
#ilhamlairəli
İlhamla irəli

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 6

Y.Abidov bu uğurların davamlı olması üçün qubalı seçiciləri partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Quba rayon şöbəsinin təbliğat qrupunun üzvləri Həsən Günəşli, Tahir Nuriyev, Hüseyn Kərimov qeyd ediblər ki, bu gün möhkəm təməllər üzərində qurulan dövlətimizin beynəlxalq aləmdə nüfuzu durmadan artır. Çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılmış böyük uğurlardan, həyata keçirilən sosial layihələrdən, respublikamızda və rayonda görülən abadlıq işlərindən danışaraq, 11 apreldə keçiriləcək seçkilərdə bütün qubalıları hamılıqla YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdılar. Seçicilər çıxışlarında Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin ölkəmizə böyük uğurlar və nailiyyətlər gətirdiyinə görə, xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini bildirərək, bu siyasətin növbəti 7 ildə də davam etməsi üçün Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.





## Şamaxılıların yeganə seçimi alternativsiz lider Cənab İlham Əliyevdir

Şamaxı rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Dünən təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Dəmirçi, Zarat-Xebəri və Ərçiman kəndlərində seçicilərlə keçirilən görüşlərdə YAP Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsinin üzvləri Ağarza Bayramov, Səməd Fətəliyev, Şahmar Hüseynov, Fatma Quliyeva, Tünzalə Yusifova və Namik Rzazadə çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən birini regionların sosial-iqtisadi inkişafı təşkil edir və dövlət başçısının fərmanları ilə təsdiqlənərək, 2004-cü ildən indiyədək uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan konkret vəzifələr müvəffəqiyyətlə yerinə yetirilib. Bunun əyani göstəricisi bölgələrin hərtərəfli və dinamik inkişafıdır. Cənab İlham Əliyev 2003-cü ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı beşillik dövlət proqramlarının qəbul edilməsi təşəbbüsünü irəli sürüb və bu təşəbbüsü reallaşdıraraq, bölgələrin inkişafına xdmət edən müvafiq dövlət proqramlarının icra olunmasını təmin edib.





Çıxış edənlər nailiyyətləri və uğurları sadalayaraq, qazanılan müvəffəqiyyətlərdə Prezident İlham Əliyevin əvəzsiz rolunu, xüsusilə vurğulayıblar və əldə olunan müsbət nəticələr Cənab Prezidentin xalqımıza töhfəsi kimi dəyərləndirilib. Seçicilər adından çıxış edənlər prezident seçkilərində aktiv iştirak edəcəklərini, ən layiqli və alternativsiz lider Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Ağdaşda seçicilərlə zirvə görüşü keçirilib

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahı Ağdaş rayon şöbəsinin təşkilatçılığı ilə YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdaş şəhər stadionunda seçicilərlə zirvə görüşü - konsert-mitinq keçirilib. 25 mindən çox ağdaşlının qatıldığı görüş böyük coşqu və ruh yüksəkliyi ilə başlayıb.





Zirvə görüşündə Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanov prezidentliyə namizəd Cənab İlham Əliyevin 15 il ölkəmizə rəhbərliyi dövründə xalq və dövlət üçün gördüyü genişmiqyaslı işlərdən, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan, iqtisadi inkişafdan danışıb. C.Osmanov bu inkişafın davamı olması naminə, ağdaşlı seçiciləri Cənab İlham Əliyevə yenidən səs verməyə çağırıb.

Zirvə görüşündə Ağdaş rayon Ağsaqqallar Şurasının sədri Rafiq Nəbiyev, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Milli Məclisin deputatları Elman Nəsirov və Sabir Hacıyev çıxış ediblər. Onlar Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyevin Prezidentiyi dövründə Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sadiq qalması, bu siyasi kursun müasir dövrün tələblərinə uyğun formada həyata keçirilməsi və bunun da nəticəsində, müstəqil Azərbaycanın regionun ən güclü dövlətinə çevrilməsi, eyni zamanda, ölkədə həyata keçirilən misilsiz abadlıq-quruculuq işlərindən və infrastruktur layihələrindən söz açıblar.

Zirvə görüşünə qatılan ağdaşlı seçicilər Cənab İlham Əliyevin ünvanına sürəkli alqış və ağdaşlılar "İlhamla irəli" şüarını səsləndiriblər. Birmənalı şəkildə, Cənab İlham Əliyev siyasətini dəstəkləyəcəklərini, 11 aprel tarixində xalqımızın Liderinə-Cənab İlham Əliyevə səs verəcəklərini bəyan ediblər. Ona görə ki, məhz dahi siyasətçinin qətiyyətli addımları Azərbaycanı daha uğurlu sabahlara aparacaq.

Zirvə görüşü respublikanın tanınmış incəsənət xadimlərinin iştirakı ilə geniş konsert proqramı ilə başa çatıb.

## Qusarlı seçicilər uğurlu gələcəyə səs verəcəklər

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun Əcəxur və Düztahir kənd seçiciləri ilə görüşlər keçirilib.





Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, qeyd edib ki, ölkədə aparılan düzgün daxili və xarici siyasətin nəticəsidir ki, bu gün respublikamız sürətlə inkişaf edir: "Bu sürət dünyanın bir çox inkişaf etmiş ölkələrini belə üstələmişdir. Nəticə isə budur ki, bütün kəndlərimiz və qəsəbələrimiz abadlaşır. Son illərdə kənd və qəsəbələrimizdə yeni məktəb binaları tikilir və əsaslı təmir olunur. Qusar rayonunda da, istər təhsil, istərsə də digər sahələrdə çox böyük uğurlar əldə olunmuşdur. Bütün qusarlı seçiciləri bu nailiyyətlərin davamlı olması üçün, 11 apreldə seçki məntəqələrinə gəlib, Cənab İlham Əliyevə səs verməyə çağırıram".

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Fərhad Pirmətov çıxış edərək, qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər ölkəmizdə böyük canlanmaya və dirçəlişə səbəb olmuşdur. Qəsəbələrdə və kəndlərdə aparılan abadlıq-quruculuq işləri hamımızda fərəh hissi doğurur. Qazanılan bu uğurlara görə, biz ölkə başçısına səmimi minnətdarlığımızı bildirir, qarşıdan gələn böyük siyasi kampaniyada qusalı seçiciləri partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıram.

Seçicilər adından çıxış edən Ədalət Qarayev, Ruslan Teymurov, Hacıkamal İbramxəlilov, Zərifə Həsənova və Namus Pirmətov 11 aprel 2018-ci il tarixdə, birmənalı olaraq, ölkənin daha da inkişafı və qüdrətinin artması naminə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Xalqımızın xoşbəxt gələcəyinin təminatçısı Cənab İlham Əliyevdir

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Göyçay rayonunun Bığır kənd sakinləri ilə növbəti görüş keçirilib.

Ardı Səh. 8




səs ®
www.sesqazeti.az
facebook
Ses Media Holding
4 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!





Əvvəli Səh. 7

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov Prezidentimiz İlham Əliyevin 15 il ərzində gördüyü misilsiz işlərdən söz açdı və bildirdi ki, xalqımızın xoşbəxt, parlaq və işıqlı gələcəyinin təminatçısı Cənab İlham Əliyevdir. O, seçiciləri fəal olmağa 11 apreldə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Daha sonra cıxış edən Milli Məclisin deputatı Elman Nəsirov bildirdi ki, Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçdi, beynəlxalq mövqeyi möhkəmləndi və Cənubi Qafqazın lider ölkəsinə çevrildi. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevə ümumxalq məhəbbətinin formalaşmasını təmin etdi.

Elman Nəsirov çıxışında seçki öncəsi xarici ölkələrdə anti-Azərbaycan kampaniyası aparan bir qrup şəxs haqqında fikirlərini bölüşüb. Natiq qeyd etdi ki, Azərbaycan inkişaf etdikcə, beynəlxalq aləmdə nüfuzu artdıqca ölkəmizin dostları da çoxalır, dəstəkçilərimiz də artır. Təbii olaraq, belə vəziyyət dostlarımızı qəlbən sevindirir. Amma bununla yanaşı, Azərbaycanın uğurları bəzi dairələri qıcıqlandırır. Ölkəmizin əldə etdiyi nailiyyətləri həzm etməyi bacarmayan qüvvələr bütün vasitələrə əl ataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Ən müxtəlif bəhanələrlə Azərbaycandan qaçıb xaricə sığınan bəzi Vətən xainləri bu gerçəkləri ya görmür, ya da görmək istəmirlər. Vidadi İsgəndərli, Orduxan Temirxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid kimi antimilli ünsürlər sosial şəbəkələrdə Azərbaycana qarşı kampaniya aparmaqdadırlar. Çox təəssüf ki, bunlar arasında Vidadi İsgənderli, Məhəmməd Mirzəli kimi göyçaylılar da var: "Bunlar xaricdə oturub, öz çirkin niyyətlərinə nail olmaq üçün nəyə desəniz əl atırlar, lakin bu cür hərəkətlərlə hec nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan güclü dövlətdir, onun mərd, üzaqgörən, pisiyaxşıdan ayıra bilən xalqı, Cənab İlham Əliyev kimi güclü, qüdrətli Prezidenti var. Hörmətli Prezidentimiz İlham Əliyevin Azərbaycan dövlətçiliyinin işıqlı sabahında daha böyük uğurlar əldə edəcəyinə inanır, Ona arxalanır və dəstəkləyirik".

Daha sonra çıxış edən millət vəkili Sabir Hacıyev dövlət başçımız Cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətindən söz açdı. Natiq bildirdi ki, bu gün müstəqil Azərbaycan istər siyasi, istər iqtisadi, istərsə də mədəni inkişaf baxımından dünyanın qüdrətli dövlətləri sırasına qəbul edilir: "Bu işıqlı yol ölkəmizi daha firavan gələcəyə aparır. Ona görə də, mən sizləri xalqımızın xoşbəxt gələcəyi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıram".

Daha sonra çıxış edən kənd sakinləri Vaqif Əliyev, Rəşad Feyzullayev, Həqiqət Əzizova, Məzahir Hacıyev və başqaları Cənab İlham Əliyevin Azərbaycanın inkişafı və dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətləri haqqında məlumat verdilər. Bildiriblər ki, bütün göyçaylılar Cənab İlham Əliyevə böyük hörmət, inam və etimad bəsləyir və bunu 11 apreldə Cənab İlham Əliyevə səs verməklə bir daha sübut edəcəklər.

## Zərdab seçiciləri "İlhamla irəli" deyir

Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərini davam etdirir. Növbəti görüş rayonun Gəlmə, Salahlı, Hüseynxanlı, Xanməmmədli, Allahqulubağı, Əlibəyli kəndlərinin, digəri Körpükənd kəndinin, başqa birisi isə Çallı, Məlikumudlu kəndlərinin və Bəyimli qəsəbəsinin seçiciləri ilə keçirilib.





Görüşlərdə çıxış edən YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova prezident seçkilərinin Azərbaycan dövlətinin qarşıdakı illərdə inkişafı baxımından əhəmiyyəti, həmçinin, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 ildə Azərbaycanın qazandığı əzəmətli nailiyyətləri barədə ətraflı məlumat verib. Pərvin Mahmudova kənd sakinlərini aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Cavid Osmanov son illərdə respublikamızda gedən sürətli, hərtərəfli və dinamik inkişafın, bilavasitə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu, daxili və xarici siyasətin nəticəsi olduğunu və bu baxımdan, növbəti seçkilərdə də xalqın yeganə alternativsiz namizədi olduğunu qeyd etmişdir.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Gülağa İsgəndərov, Vəfa Bayramova, Mübariz Umarov, Fiqura Abbasova, Zabit Davudov, Rüxsarə Eminova Cənab İlham Əliyevin Azərbaycan dövlətinin inkişafı və xalqımızın rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlərindən bəhs ediblər. Çıxış edənlər xalqımızın öz müqəddəratını növbəti 7 il ərzində də yeganə layiqli namizəd Cənab İlham Əliyevə etibar edəcəyinə əminliklərini bildirdilər.

## Qəbələ seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Qəbələ rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Yenikənd və Topbağ kəndinin seçiciləri ilə keçirilib.





Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Sabir Bayramov ölkəmizdə prezident seçkilərinin demokratik, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində görülən mütərəqqi işlər barədə məlumat verib. O, daha sonra YAP-ın prezident seçkilərində namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanın qazandığı əzəmətli nailiyyətlər barədə danışıb və bütün seçiciləri Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Saleh Aslanov bildirib ki, hazırda dünyanın ən sürətlə inkişaf edən ölkəsi olan Azərbaycanda vətəndaşların sosial rifahının və həyat şəraitinin yüksəldilməsi, regional inkişaf proqramlarının uğurla icrası, ölkəmizin beynəlxalq mövqeyinin daha da gücləndirilməsi, demokratik təsisatların fəaliyyətinin genişləndirilməsi istiqamətində də əldə olunan nailiyyətlər Cənab İlham Əliyevin adı ilə bağlıdır. S.Aslanov deyib ki, Azərbaycanın yüksək səviyyədə inkişaf etmiş ölkələr sırasına daxil olmasını təmin edəcək bu hədəflərin reallaşdırılması üçün Cənab İlham Əliyevə səs verməliyik.

Tədbirdə çıxış edən kənd sakinləri Nazirə Yaralıyeva, Sunayə Yusibova və İlyas Əmiraslanov 11 apreldə keçiriləcək prezident seçkilərində bütün seçiciləri hamılıqla Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Neft Daşları qəsəbəsinin seçiciləri "İlhamla irəli" şüarı ilə seçkilərə gedirlər

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin YAP Piral-

# Xalq İlham Əliyevə "HƏ" deyir!

lahı rayon təşkilatı tərəfindən aparılan təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Seçicilərlə növbəti görüş Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Pirallahı rayon şöbəsi tərəfindən Neft Daşları qəsəbəsində keçirilib.

Görüşdən öncə, tədbir iştirakçıları Neft Daşlarında Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzüblər. Sonra Neft Daşlarında yaradılmış Heydər Əliyev Muzeyinə baxış keçirilib, möcüzə-








lər adasının tarixini əks etdirən müxtəlif tarixi fotoşəkillərə və stendlərə nəzər salınıb.

Tədbiri giriş sözü ilə açan Neft Daşları ərazi ilk partiya təşkilatının sədri Qoçalı Mahmudov bütün qonaqları və seçiciləri salamlayaraq, 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin siyasi fəaliyyəti barədə fikirlərini bildirib və vurğulayıb ki, məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daim irəliləyir, ölkəmiz regionun lider dövlətinə çevrilib, eləcə də, dünyada öz mövqeyini xeyli gücləndirərək, bir sıra regional və beynəlxalq əhəmiyyətli layihələrə imza atıb, həmçinin, ən yüksək trubunalarda öz mötəbər yerini tutub. Q.Mahmudov seçki günü hər kəsi fəal olmağa və seçki məntəqələrinə gedərək, Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri və Mərkəzi Seçki Qərargahı Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov prezident seçkilərinin Azərbaycanın inkişafında böyük əhəmiyyəti ilə bağlı danışaraq, hər bir seçicinin bu prosesdə fəal iştirakının vacibliyini vurğulayıb. O, ölkəmizdə azad, demokratik və şəffaf seçkilərin keçirilməsi üçün hər cür şəraitin olduğunu, aprelin 11-də keçiriləcək prezident seçkilərinin ən yüksək demokratik prinsiplərə cavab verəcəyini, Azərbaycanda növbəti prezident seçkilərinin cəmiyyətimizin iqtisadi, ictimai-siyasi, mənəvi-psixoloji durumunun yüksək olduğu bir vaxtda keçirildiyini qeyd edib. Təşkilat sədri bildirdi ki, xalqımız yaxşı bilir ki, 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevin qələbəsi labüddür. "Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu günə kimi olan müddət Azərbaycan tarixinə sürətli inkişaf dövrü kimi daxil olub" deyə vurğulayan H.Şikarov, həmçinin bildirib ki, Cənab İlham Əliyevə səs vermək stabilliyə, sabitliyə, inkişaf və tərəqqiyə səs vermək deməkdir. O, 11 aprel tarixində hər kəsi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun direktoru, texnika elmləri doktoru, akademik Rasim Əliquliyev bildirib ki, seçicilər Cənab İlham Əliyevə, ona görə etimad göstərəcəklər ki, onlar son 15 ildə ölkədəki möhtəşəm inkişafın uğurlu nəticələrini öz şəxsi həyatlarında hiss ediblər. "Ona görə də bu gün Vətənini, dövlətini sevən hər bir vətəndaş İlham Əliyev Cənablarına səs verəcəklər" deyə natiq qeyd edib.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru Ədalət Muradov çıxış edərək bildirib ki, Cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. Belə ki, 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib və yeniləşib. Ə.Muradov da seçiciləri Azərbaycanın daha işıqlı gələcəyinə - Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Seçicilər qarşısında çıxış edən Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev Cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 15 ildə əldə edilən uğurlardan danışıb. Qeyd olunub ki, həyata keçirilən müvafiq dövlət proqramları Neft Daşlarının da inkişafına təkan verib. Məhz buna görə də, Neft Daşları qəsəbəsinin seçiciləri aprelin 11-də bu uğurların davamına səs verəcəklər.

Tədbirdə çıxış edən Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev də bu gün ölkəmizin əldə etdiyi uğurlara imza atan Cənab İlham Əliyevin Azərbaycanı regionda və dünyada böyük siyasi qüvvəyə çevirdiyini bildirib: "Bu günlər Azərbaycan Respublikası regionda ən güclü, müstəqil dövlətdir"-deyə qeyd edən natiq Qafqazda atılan hər bir addımın, siyasi, iqtisadi, mədəni layihələrin Azərbaycanın iştirakı və ya rəhbərliyi olmadan həyata keçirilmədiyini deyərək, seçki günü seçiciləri fəal olmağa və İlham Əliyev Cənablarına səs verməyə çağırış edib.

Neft Daşlarının Neft-Qaz Çıxartma İdarəsinin operatoru İradə İsmayılova çıxış edərək bildirib ki, hər zaman Ulu Öndər Heydər Əliyevin ideyalarına və İlham Əliyev siyasətinə sədaqətləri ilə seçilən Pirallahı sakinləri qarşıdakı 7 il ərzində də öz talelərini bu siyasətə bağlayacaqlarına, 11 aprel seçkilərində Cənab İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərinə əminliklərini ifadə ediblər. Daha sonra tədbir respublikanın tanınmış incəsənət xadimlərinin ifasında bir-birindən maraqlı konsert proqramı ilə davam etdirilib.

## Qaxlıların bir namizədi var - Cənab İlham Əliyev

11 aprel seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində dünən Qax rayonunda seçicilərlə görüş keçirilmişdir. Görüşdə rayonun Qorağan və Şotavar kəndlərinin sakinləri iştirak etmişlər. Seçicilərlə görüşdə iştirak edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Eldəniz Şabanov, Xalid Heydərov, Müzəffər Səfərov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin son illər ərzində Azərbaycanın inkişafı naminə gördüyü işlər barədə geniş məlumat verdilər. Natiqlər qeyd etdilər ki, Cənab İlham Əliyevin daim öz xal-






qının yanında olması, dövlətin maraqlarından çıxış etməsi, özünün dediyi kimi- "hər bir Azərbaycanlının Prezidenti" olması Onu alternativsiz lider kimi dəyərləndirməyə imkan verir. Biz hamımız əminik ki, 11 apreldə Azərbaycan xalqı öz gələcəyini müəyyənləşdirərək, doğru seçimini edəcəkdir.

Görüşdə kənd sakinlərindən Vahid Əliyev, Sevil Hacıyeva, Nazim Rəsulov, Rasim Məmmədov və başqaları çıxış edərək, qeyd etdilər ki, Cənab İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə olunmuş nailiyyətlər Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını bir daha təsdiqləyir və biz qaxlılar, bu kəndlərin sakinləri respublikamızda gedən inkişafı, tərəqqini çox yaxşı görürük. Bunun üçün də biz öz səsimizi bu inkişafa, bu tərəqqiyə - Cənab İlham Əliyevə verəcəyik.

## Xaçmazda izdihamlı zirvə toplantısı keçirilib

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Xaçmaz rayonunda 50 mindən artıq seçicinin iştirakı ilə izdihamlı zirvə görüşü keçirildi. "İlhamla irəli" şüarı ilə keçirilən tədbirin aparıcıları Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son 15 ildə böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıblar.

Tədbirdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev qeyd edib ki, ölkə başçısı Cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr sayəsində Azərbaycan dövləti iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır. Azərbaycan dövləti müstəqilliyin möhkəmləndirilməsi, ölkədə tarazlı və davamlı inkişafın təmin edilməsi istiqamətində atdığı addımlar və əldə edilən iqtisadi uğurları ilə dünyanın aparıcı dövlətinə, eləcə də, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir. Rayon təşkilat sədri Cənab İlham Əliyevin dövlətçiliyin müdafiəsi naminə atdığı hər bir addımının vətəndaşlar tərəfindən rəğbətlə qarşılandığını vurğulayaraq, 11 aprel tarixində keçiriləcək prezident seçkilərində xaçmazlı seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 9

Mitinqdə Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Abel Məhərrəmov, Milli Məclisin üzvləri İlham Əliyev, Eldəniz Səlimov, YAP Xaçmaz rayon təşkilatının qadınlar








şurasının sədri Sevinc Sədullayeva çıxış edərək ölkəmizdə aparılan uğurlu islahatlardan, son 15 ildə həyata keçirilən layihələrin əhəmiyyətindən danışıblar. Seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Mitinqdə YAP Mərkəzi Aparatının məsul işçisi Araz Xudadanov da iştirak etmişdir. Sonda incəsənət ustalarının çıxışları ilə mitinq davam etmişdir.

## Arzuları reallığa çevirən Cənab İlham Əliyevlə nurlu sabahlara doğru

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsi namizədliyi YAP tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində təhsil, səhiyyə işçiləri və gənclərlə görüşlər keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev bildirib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün Cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasəti uğurla davam etdirir.

Füzuli Gülaliyev vurğulayıb ki, əldə olunan nailiyyətlərin hamısı, məhz Cənab İlham Əliyevin adi ilə bağlıdır və bu sahədə də töhfələri danılmazdır. Məhz buna görə də, Cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz fəaliyyəti, hesabagəlməz xidmətləri nəzərə alınaraq, O, Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizəd irəli sürülüb və sözsüz ki, bu təklif bütün xalqın, dövlətimizi azad və xoşbəxt görmək istəyən hər bir kəsin ürəyindəndir.

Füzuli Gülaliyev nəzərə çatdırıb ki, hər kəs sərbəst düşünmək, müstəqil seçim hüququna malikdir və 11 aprel 2018-ci il prezident seçkilərində hüququmuzdan istifadə edərək, seçki məntəqələrinə gəlib layiqli namizədə, Cənab





İlham Əliyevə səs verməklə Azərbaycanın uğurlu gələcəyinə səs vermiş olarıq.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik və milli təhlükəsizlik şəraiti, ötən 15 il ərzində Azərbaycanda əldə olunmuş dinamik iqtisadi artım göstəriciləri, ölkənin strateji valyuta ehtiyatlarının artması, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurla icrası, vətəndaşların sosial rifahının yaxşılaşması, ictimai həyatın bütün sahələrinin kompleks inkişafı, ordu quruculuğu haqqında seçicilərə ətraflı məlumat verib və bütün bu nailiyyətlərdə Cənab İlham Əliyevin müstəsna rolundan danışıb.

Təbliğat-təşviqat qrupunun üzvlərindən Əlisa Hacıyev, Tahir Səbzaliyev, Güldəstə Bayımova və başqaları çıxış edərək, partiyanın namizədi Cənab İlham Əliyevlə həmrəyliklərini ifadə edərək, bildiriblər ki, 2003-cü ildə keçirilən prezident seçkilərində xalqa müraciət edərək praqmatik düşüncəli, yüksək intelektə malik Cənab İlham Əliyevə özü qədər inandığını bildirən Ümummilli Lider Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də Azərbaycanın gələcəyini etibarlı əllərə tapşırmasıdır. Qobustan seçiciləri 11 aprel 2018-ci ildə prezident seçkilərində daha fəal iştirak edəcəklərini, Azərbaycana bugünkü uğurları qazandıran, dünya birliyində layiqli yer tutmasını, sözünün də imzası qədər qüvvəsinin olmasını şərtləndirən siyasətə bir daha "HƏ" deyəcəklərini, Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Görüşdə Şıxzahırlı kənd tam orta məktəbinin müəllimləsi Günay Əliyeva, Vüsalə Məmmədova, Əbil Qasımov çıxış edərək bildiriblər ki, son 15 ildə Azərbaycanda 3 mindən çox yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub, 600-dən çox tibb ocağı tikilib istifadəyə verilib, eləcə də, yeni-yeni müəssisələr yaradılıb və bütün bunlar ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən Ümummilli Lider Heydər Əliyevin ideyalarının ardıcıl və qətiyyətli şəkildə həyata keçirilməsi sayəsində mümkün olub. Əldə edilən hər bir uğurun, bilavasitə Cənab İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsi kimi dəyərləndirən qobustanlılar bu siyasəti, birmənalı şəkildə dəstəkləyib və bütün seçiciləri aprelin 11-də fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Cənab İlham Əliyevlə inamlı qələbələrə doğru

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayon seçicilərilə görüş keçirilib.

Görüşü YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsinin və rayon təşkilatının sədri Mehriban Abasquliyeva açaraq, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərin uğurla davam etdiyini bildirib: "Sabunçu rayon seçiciləri həmişə Ulu Öndər Heydər Əliyevin siyasətinin layiqli davamçısı Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, Onun uğurlu siyasətini dəstəkləyiblər. Bölgədə böyük nüfuza malik, iqtisadi və siyasi qüdrətinə görə seçilən, geosiyasi mövqeyinə görə böyük əhəmiyyət daşıyan, dünya dövlətlərinin enerji təhlükəsizliyinin təminatında əvəzsiz rolu olan Azərbaycan dinamik inkişaf edib. Əldə olunan bütün uğurlar möhkəm təmələ əsaslanan Azərbaycanın daxili və xarici siyasətinin məntiqi ifadəsi, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin xidmətlərinin nəticəsidir".

Rayon təşkilat sədri ölkə vətəndaşlarının öz Liderinin





xidmətlərini yüksək dəyərləndirdiklərini və Ona böyük etimad göstərdiklərini bildirib. Siyasi sabitliyi bütün uğurların qazanılması üçün başlıca amil kimi qiymətləndirən Sabunçu seçicilərini də bir daha belə əmin-amanlığı qətiyyəti və siyasi iradəsi ilə qoruyub saxlayan Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Görüşdə çıxış edən millət vəkili Eldar Quliyev, YAP Sabunçu rayon təşkilatı idarə heyətinin üzvü Vahid Hacıyev bildiriblər ki, son 15 ilin gerçəklikləri əminliklə söyləməyə əsas verir ki, Prezident İlham Əliyev dövlət başçısı kimi Ona bəslənilən ümidləri doğruldub və Özünü qətiyyətli və praqmatik siyasətçi kimi təsdiqləyib. Bu baxımdan da, 11 apreldə prezident seçkilərində Sabunçu seçiciləri ölkəmizin gələcəyinə, gələcək inkişafına, Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamına səs verməyə çağırıblar.

## Qəbələ seçiciləri seçkilərə böyük inamla gedir

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayonun Qəmərvan kəndində keçirilib.



lib. Görüşlərdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvlərindən Reyhan Məmmədova və Saleh Aslanov iştirak ediblər.

Ardı Səh. 11

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 10

Çıxış edən hər iki təbliğat-təşviqat qrupunun üzvü qeyd ediblər ki, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İl-



ham Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı quruculuq işləri və infrastruktur layihələri reallaşdırılır. Azərbaycan dövləti və xalqı, o cümlədən, Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərinə böyük uğurlarla gedir: "Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan bütün sahələrdə misilsiz nailiyyətlər qazanıb. İlk növbədə, ölkəmizdə güclü ictimai-siyasi sabitlik mövcuddur və vətəndaş həmrəyliyi var. Bütün bu görülən işlərin bundan sonra da davam etdirilməsi üçün bizlər hamılıqla 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Cənab İlham Əliyevə yekdilliklə səs verəcəyik".

Tədbirdə çıxış edən kənd sakinlərindən Zahir Aslanov, Hacıbala Ziyadov, Rəna Feyzullayeva və Qabil Cəfərov əminliklə bildiriblər ki, xalqımızın mütləq əksəriyyəti aprelin 11-də keçiriləcək prezident seçkilərində ən doğru seçim edərək, Cənab İlham Əliyevə səs verəcəklər!

## Ağdamlılar Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ağdam rayonunda seçicilərlə görüşlər davam edir. Növbəti görüş rayonun Çəmənli kəndində keçirilib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsinin sədri Hüseyn Bayramov, rayon təbliğat qrupunun üzvü Teyyub Nəcəfov qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat veriblər. Çıxışçılar, həmçinin, son 15 ildə Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət nəticəsində əldə edilən uğurlardan danışıblar. Qeyd olunub ki, həyata keçirilən uğurlu siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb. Azərbaycan bu gün yerləşdiyi regionun lider dövləti kimi tanınır. Çıxışlarda o da vurğulanıb ki, Ağdam ictimaiyyəti hər zaman Prezident İlham Əliyevi dəstəkləyib və aprelin 11-də bir daha bu dəstəyi nümayiş etdirəcək.





Görüşlərdə çıxış edən kənd sakinləri ağdamlı seçicilərinin aprelin 11-də YAP-ın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

# Son 15 ildə qazanılmış möhtəşəm uğurlar cənab İlham Əliyevi prezident seçkilərinin favoriti edib

*Milli Məclisin deputatı Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, bildiyiniz kimi aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Seçkiyə az vaxt qaldığı müddətdə təbliğat-təşviqat məsələlərini necə xarakterizə edərdiniz?***

- Hər bir ölkədə olduğu kimi Azərbaycanda da prezident seçkiləri ölkənin gələcək taleyinə təsir edən mühüm hadisədir. Prezidentliyə namizədlərin qanunla nəzərdə tutulmuş müxtəlif vasitələrlə təbliğat-təşviqat aparması seçkinin ən maraqlı mərhələlərindəndir. Seçkilərdə qeydiyyata alınmış 8 namizəd iştirak edir. İctimai Televiziyada onlar üçün pulsuz efir vaxtı ayrılıb. Bu bütün seçiciləri əhatə edəcək təbliğat-təşviqat aparmağa imkan verir. Digər tərəfdən hər bir namizəd seçirilərlə görüşmək, innovativ təbliğat üsullarından istifadə etmək, informasiya kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə etmək istiqamətlərində də fəaliyyət göstərirlər. Ölkədə ictimai-sabitliyin hökm sürməsi təbliğat-təşviqat aparmaq üçün bütün namizədlət üçün əlverişli şərait yaratmışdır.

***- Təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirsiniz. Görüşdüyünüz seçicilər 11 aprel seçkilərinə hazırdırmı? İnsanlarda seçki əhvali-ruhiyyəsi nə yerdədi?***

- Biz Yeni Azərbaycan Partiyası təbliğat-təşviqat qrupunun üzvləri olaraq artıq bütün istiqamətlərdə təbliğat işləri aparırıq. Həm in-



ternet məkanında yeni texnoloji vasitələrdən istifadə edərək, həm televiziyada debatlarda iştirak edərək, həm də əhali ilə birbaşa ünsiyyət quraraq insanları seçkilərdə aktiv iştirak etməyə və bizim partiyanın namizədi cənab İlham Əliyevə səs verməyə təşviq edirik. İnsanlar bu görüşlərə yüksək əhaval ruhiyyədə gəlirlər, aktiv iştirak edirlər, özləri də təşəbbüs göstərərək təşviqat fəaliyyətinə qoşulurlar.

Ümumilikdə deyə bilərəm ki, əhalidə seçkilərdə iştirak ilə bağlı yüksək əhval ruhiyyə var. Vətəndaşlar öz seçimlərini etməkdə müstəqildirlər. Hər bir namizəd seçicilərin səsini qazanmaq üçün mübarizə aparır. Azərbaycan indiyə qədər də keçirilən bütün seçkilərdə vətəndaşlar aktiv olaraq seçkilərdə iştirak ediblər və öz vətəndaş mövqelərini ifadə ediblər. Əminəm ki, 11 aprel seçkiləri də seçici aktivliyi şəraitində keçəcəkdir. Seçicilərin əsas arzusu ölkəmizin daha da inkişafı, onun güclü, firavan olmasıdır ki, əminəm ki, bunu da təmin edə biləcək namizədə, bizim partiyanın namizədi cənab İlham Əliyevə səs verəcəklər.

***- Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü kimi, necə hesab edirsiniz, beynəlxalq ictimayyətin Azərbaycandakı prezident seçkilərinə marağı nə dərəcədədir?***

- Artıq seçkiləri müşahidə etmək üçün 312 beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Bundan əlavə qrafiklərin gərginliyinə baxmayaraq ATƏT Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun 280 qısa müddətli müşahidəçisinin 11 aprel seçkilərini müşahidə etməsi beynəlxaq ictimaiyyətin Azərbaycanda keçirilən seçkilərə marağından xəbər verir. Müşahidəçilər bütün mərhələlərdə iştirak edirlər.

***- Namizədlərin imkanlarını necə dəyərləndirirsiniz? Ümumiyyətlə, debatlardakı danşıqlar haqda fikirləriniz necədir?***

- Siyasi texnololoqlar belə düşünürlər ki, prezidentliyə namizədlər təbliğat təşviqat işini seçki dövründə deyil, illərlə aparmalıdırlar. Çünki belə mühüm bir posta seçilmək üçün qısa müddət ərzində seçicilərin mütləq əksəriyyətini rəğbətini qazanmaq üçün uzunmüddətli fəaliyyət tələb olunur. Və bu fəaliyyətin kulminasiya mərhələsi də seçkilərdəki təbliğat-təşviqat mərhələsidir. Hər bi namizəd də bu mərhələdə indiyə qədər ölkə və xalq üçün nə etdikərindən və seçilərsə nələr edəcəklərindən öz platformalarında bəhs edirlər.

Mənim müşahidələrim bundan ibarətdir ki, hər bir namizəd çıxışlarında buna çalışırlar. Televiziya debatlarını da insanlar maraqla izləyirlər, dünyanın bütün sivil ölkələrində olduğu kimi, bizdə də debatlar maraqlı keçir. Dövlət tərəfindən yaradılan şərait hər bir namizəd üçün bərabərdir. Amma bu heç də bütün namizədlərin sosial dayaqlarını bərabər olması anlamına gəlmir. Yeni Azərbaycan Partiyası regionda ən böyük partiyadır, bizim 700 mindən çox üzvümüz var, namizədimiz cənab İlham Əliyevin son 15 ildə ölkədə fəaliyyəti nəticəsində görülən nəhəng işlər və nəticələr göz qabağındadır. Və bu qazanılmış sosial,iqtisadi, hərbi uğurlar təbii olaraq Onu bu seçkilərin favoriti etmişdir.

***- Tahir müəllim, belə fikirlər səslənir ki, seçkidən sonra ölkədə ciddi islahatlar həyata keçiriləcək. Siz özünüz 11 apreldən sonra ölkə adına müsbət mənada nə kimi dəyişikliklərin olacağını proqnozlaşdırırsınız?***

- Cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının son qurultayında ölkəmizin inkişafı üçün iqtisadi və siyasi islahatların sürətlənməsinin vacibliyini bəyan etdi. Azərbaycanda artıq sürətli islahatlar aparılır, uğurlu nəticələr əldə olunur və bu yol ölkəmizin inkişaf yoludur. Mən əminəm 11 aprel prezident seçkilərində YAP-nın namizədi qalib gələcək və cənab İlham Əliyevin özünün də bəyan etdiyi kimi, islahatları daha da sürətləndirməklə Azərbaycanın daha da inkişafına, güclənməsinə və rifahına nail olacaqdır!

## Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi MSK-da akkreditasiyadan keçib

Prezident seçkilərini izləmək üçün 871 beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında (MSK) akkreditasiyadan keçib. Onlar 58 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə sechki-2018.az saytına MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib. Şahin Əsədli qeyd edib ki, eyni zamanda, indiyədək 56 min 864 yerli müşahidəçi də akkreditasiyadan keçib. Onlardan 1962-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 54 min 902-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb. O, həmçinin əlavə edib ki, siyasi partiyalar tərəfindən aşağı seçki komissiyalarına 5099 məşvərətçi səs hüquqlu üzv təyin olunub.

# Xalqımız Azərbaycanın davamlı inkişafı naminə cənab İlham Əliyevi dəstəkləyir

## *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevin yap.org.az-a müsahibəsi*

***- Ağalar müəllim, aprelin 11-də Azərbaycanda prezident seçkiləri keçiriləcək. Seçkiöncəsi mühiti necə qiymətləndirirsiniz?***

- Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri xalqımız və dövlətimiz üçün mühüm əhəmiyyətə malikdir. Seçkilərin nəticələri qarşıdakı dövrdə ölkəmizin inkişafı, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsi və digər məsələlər kontekstində böyük xüsusi daşıyır. Azərbaycan son 15 il ərzində Prezident İlham Əliyevin siyasəti sayəsində hərtərəfli inkişaf yolu keçib. Elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və əhəmiyyətli uğurlar qazanılıb. Bunun əsasında isə uğurlu iqtisadi siyasət dayanır. Regionların davamlı sosial-iqtisadi inkişafı təmin edilib, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənib, sosial məsələlər uğurla həll olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış mühüm nailiyyətlərdən biri ölkəmizdə möhkəm sabitliyin təmin olunması və etibarlı təhlükəsizlik mühitinin yaradılmasıdır. Azərbaycan sabitlik adası kimi bir çox ölkələr üçün örnəkdir, ölkəmizdə təhlükəsizlik möhkəm hökm sürür. Azərbaycan həm də tolerantlıq nümunəsidir, ölkəmizdə müxtəlif xalqlara və mədəniyyətlərə məxsus insanlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Multikulturalizm Azərbaycan cəmiyyətində həyat tərzidir. Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda demokratik ölkə imicinə sahibdir. Həyata keçirilən islahatlar demokratik inkişafı sürətləndirməklə yanaşı, idarəetmənin daha da təkmilləşməsini şərtləndirir, bütün bunlar isə dövlətimizin gücünün artmasını təmin etmiş olur.

Seçkiöncəsi mühit isə olduqca sabit və şəffafdır, bütün namizədlərə bərabər şərait, imkanlar yaradılıb. Seçkilərin nəticələrini isə Azərbaycan xalqının iradəsi müəyyən edəcək. Əminəm ki, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev bu dəfə də möhtəşəm qələbə qazanacaq.

***- Siz ötən dövrə nəzər salaraq ölkəmizin iqtisadi inkişafının əhəmiyyətinə toxundunuz. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi tərəqqi yolunu və ölkəmizin iqtisadi inkişafını necə səciyyələndirə bilərsiniz?***

- Bilirsiniz ki, ötən müddət ərzində Azərbaycan Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. İqtisadiyyatın dinamik inkişafının təmin edilməsi bütün sahələrin tərəqqisini təmin edib, əhalinin gəlirlərinin artmasını, işsizlik və yoxsulluğun azalmasını şərtləndirib, vətəndaşların rifahı daha da yaxşılaşıb. Bu gün hər bir sektorda inkişaf müşahidə olunur ki, bunun da əsasında da Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət dayanır. Azərbaycanın iqtisadi inkişaf modeli dünyada dəstəklənir. Bu gün dünyanın qlobal çağırışlarından olan yoxsulluqla mübarizə sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsi və tətbiqi vacib amil kimi qeyd edilir. Ha-



zırda işsizlik, eyni zamanda, yoxsulluq 5 faiz səviyyəsindədir ki, bu da dayanıqlı inkişaf siyasətinin nəticəsidir. Ötən 15 ildə ölkəmizdə maaşların beş, pensiyaların səkkiz dəfədən çox artması da xüsusi əhəmiyyətə malikdir.

Bunlarla yanaşı, məqsədyönlü siyasət nəticəsində respublikamız öz imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib və hər cəhətdən güclü dövlətə çevrilib. Cənubi Qafqaz iqtisadiyyatının 70 faizdən çoxunu özündə birləşdirən Azərbaycan regionda mühüm siyasi və iqtisadi əməkdaşlıq platformalarının yaradılmasının əsas təşəbbüskarı rolunda çıxış edir. Respublikamızın fəal iştirakı ilə həyata keçirilən enerji, infrastruktur və digər layihələr bütövlükdə regionun inkişafında mühüm rol oynayır. Artıq Azərbaycan Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən nüfuzlu bir ölkəyə çevrilib. Azərbaycanın fəal təşəbbüslər irəli sürdüyü və hər cür dəstək verdiyi enerji layihələri ölkəmizin region üçün önəmini artıran faktorlar kimi çıxış edir.

***- Ağalar müəllim, ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin mühüm prioritetlərindən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi olub. Bu istiqamətdə görülən işlər və əldə edilən nəticələrlə bağlı nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafını mühüm prioritetlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə həyata keçirilən tədbirlər səmərəli nəticələr verib və qarşıya qoyulan hədəflərə çatmaq üçün etibarlı zəmin yaradıb. Son 14 dörd il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Sənaye sahəsində artım 2,6 dəfə olub, kənd təsərrüfatında isə bu göstərici 1,7 dəfədir. Qeyri-neft ixracının isə 4,1 dəfə artması mühüm göstəricidir.

Özəl sektorunun inkişafı yönündə də görülən əhəmiyyətli tədbirlər müsbət nəticələrlə yadda qalıb. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti dövründə 34600-dən çox sahibkarın ümumi dəyəri 4,5 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 2,1 milyard manatdan artıq güzəştli kredit verilib ki, bunun da 75 faizi respublikanın regionlarının payına düşür. Güzəştli şərtlərlə verilən bu kreditlər sahibkarlar tərəfindən yüksək qiymətləndirilib, bu kreditlərdən səmərəli istifadə edilərək yeni müəssisələr, iş yerləri yaradılıb.

Digər tərəfdən, yeni şəraitdə Azərbaycanda aparılan islahatların böyük qismi özəl sektorda aktivliyin artmasına, ölkə boyu biznes mühitinin optimallaşdırılmasına hesablanıb. Prezident İlham Əliyevin 2016-cı il 13 iyul tarixdə imzaladığı "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Sərəncamı əsasında respublikamızda özəl bölmənin dəstəklənməsi məqsədilə kompleks tədbirlər intensiv şəkildə davam etdirilir. Respublikada sahibkarlıq subyektlərində yoxlamaların dayandırılmasının müddəti 2021-ci ilədək uzadılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilib, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsi təmin olunub. Eyni zamanda, regionlarda sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması baxımından ölkədə aparılan islahatlar çərçivəsində "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi də böyük aktuallıq daşıyır. Bəhs olunan sənəddə ölkədə kiçik və orta sahibkarlığın vəziyyəti təhlil edilib, xüsusilə bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilib. Yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilir. Yol xəritəsində adıçəkilən baxışlarda nəzərdə tutulan məqsədlərə nail olmaq üçün 5 strateji hədəf müəyyən edilib.

Hazırda Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi kimi sosial-iqtisadi inkişaf siyasətinin mühüm istiqamətlərində səmərəli tədbirlər reallaşdırılır. Bütün bunlar isə Azərbaycanın iqtisadi inkişafını daha da sürətləndirir.

***- Bütün sahələrdə möhtəşəm uğurların əldə olunması Azərbaycan vətəndaşlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəsləməsini şərtləndirib. Sizcə, bu amil özünü seçkilərin nəticələrində necə göstərəcək?***

- Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf siyasəti vətəndaş məmnunluğunu təmin edib. Çünki əhalinin rifah halı daha da yaxşılaşıb, ölkəmizin tərəqqisi insanların həyatında müsbət dəyişikliklərin meydana çıxmasına səbəb olub. Azərbaycanın dayanıqlı inkişafının mütəmadi xarakter daşıması insanların gələcəyə inamla və optimist baxmasına əsas yaradıb. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin alternativsiz olduğunu göstərir. Azərbaycan xalqı seçkilər vasitəsilə öz iradəsini ifadə edəcək və növbəti dəfə cənab İlham Əliyevə etimad göstərəcək. Xalqımız Azərbaycanın gələcək inkişafı naminə cənab İlham Əliyevə səs verəcək!

# Laçınlıların tək seçimi İlham Əliyevdir





Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat - təşviqat kampaniyası çərçivəsində növbəti görüş Laçınlıların sıx məskunlaşdığı Ağcabədi rayon Taxta-körpü qəsəbəsi Alxaslı obasında keçirildi. Görüşdə rayon təbliğat-təşviqat qrupunun üzvləri iştirak ediblər.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Laçın rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri İlqar İlyasov çıxış edərək qeyd etdi ki, Azərbaycan dövləti və xalqı, o cümlədən Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərinə böyük uğurlarla gedir: Xalqımız öz liderinə inanır, liderimiz də xalqın maraqlarını ləyaqətlə təmsil edir, davamlı olmasını istəyərək, laçınlılar 11 aprel tarixində cənab İlham Əliyevə yenidən etimad göstərəcəklər".Ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib, yeniləşib. Bunu bu müddət ərzindəki statistik rəqəmlər təsdiqləyir. Bu dövrdə əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib və bu yüksəlişi hər bir vətəndaş öz həyatında hiss etməkdədir. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin nəticəsidir. Ölkəmizdə iqtisadi inkişaf sürətli və davamlıdır.Bu siyasətin davamlı olması üçün yenə də cənab İlham Əliyevə səs verməliyik. Laçınlı seçicilər aprelin 11-də əminliklə cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərini bildirdi.

Digər çıx edən Laçın rayon ziyalıları və ağsaqqallar Murad Hüseynov, Roza Cəbrayılova, Əlastan Şalikov, Səyyaf Hüseynov, Məzahir Nağıyev, Tahir Bayramov vurğuladılar ki, Ümummilli Liderimizin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.. Respublikamız, o cümlədən kənd və qəsəbələrimiz hər gün daha da inkişaf edir. Bütün bu görülən işlərin bundan sonra da davam etdirilməsi üçün bizlər hamılıqla 11 aprel 2018-ci il tarixdə keçiriləcək Prezident seçkilərində seçki məntəqələrinə gələrək Yeni Azərbaycan Partiyasının namizədi, növbəti 7 ilimizin qarantı, İlham Heydər oğlu Əliyevə səs verərək öz liderimizə məhəbbətimizi, hörmətimizi səsvermə məntəqələrində fəallıqla təsdiqləyəcəyik.

## Hindistanın xarici işlər naziri Azərbaycana səfərə gəlir



Hindistanın xarici işlər naziri xanım Suşma Svarac aprelin 4-də Azərbaycana rəsmi səfərə gələcək. Bu barədə SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Səfər çərçivəsində Suşma Svaracın xarici işlər naziri Elmar Məmmədyarov ilə görüşü və Qoşulmama Hərəkatının nazirlər konfransında iştirakı nəzərdə tutulub. Görüşdən sonra Azərbaycan və Hindistan xarici işlər nazirlərinin birgə mətbuat konfransı keçiriləcək.




# Xalqımız inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevə səs verəcək

## Azərbaycan Respublikası Milli Məclisinin deputatı Malik Həsənovun yap.org.az-a müsahibəsi



***- Malik müəllim, Azərbaycan prezident seçkilərinə sabitlik və inkişaf fonunda gedir. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinin əhəmiyyəti və nəticələri barədə nə deyə bilərsiniz?***

- Aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Əvvəla onu demək istəyirəm ki, seçkiöncəsi mühit, ictimai-siyasi sabitlik və demokratik şərait xüsusi olaraq təqdir edilir. İctimai rəy sorğuları və mövcud reallıqlar isə deməyə əsas verir ki, Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinin nəticələrini olduqca yüksək qiymətləndirir. Bu, təsadüfi deyil, çünki müasir müstəqil Azərbaycanın hazırkı mənzərəsini səciyyələndirilən başlıca reallıqlar möhkəm ictimai-siyasi sabitlik və dinamik iqtisadi inkişafla bağlıdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu inkişaf siyasətinin Onun layiqli varisi cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan yüksək beynəlxalq reytinqə malik olan ölkəyə çevrilib, bütün sahələrdə əhəmiyyətli uğurlar qazanılıb. Təsadüfi deyil ki, son 14 ildə Azərbaycan dünya miqyasında sürətli inkişaf tempinə malik olan ölkələr sırasında yer alıb. Ötən müddət ərzində milli iqtisadiyyatımız 3 dəfədən çox artıb, qeyri-neft sektoru 2,8 dəfə genişlənib. 2004-cü ildə Azərbaycanın strateji valyuta ehtiyatları cəmi 1,8 milyard dollar həcmində idisə, hazırda bu göstərici 42 milyard dollara çatıb. Yəni respublikanın valyuta ehtiyatları 14 il ərzində 23 dəfə artıb və bu, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə dünya miqyasında çox yüksək göstəricidir. Son 14 iqtisadi göstəricilərimiz ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. Bu müddət ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaradılıb və onlardan 1,4 milyonu daimidir. 2017-ci ildə isə 177 min daimi iş yeri açılıb. Yeni iş yerlərinin açılması regionları da əhatə edir. Daha dəqiq desək, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində bölgələrdə əhalinin məşğulluğunun təmin olunması, yeni iş yerlərinin açılması istiqamətində mühüm nailiyyətlər əldə edilib.

***- Yeri gəlmişkən, milli inkişaf siyasətinin mühüm istiqamətlərindən birini ayrı-ayrı sahələrdə müvafiq proqram və layihələrin uğurla icra olunmasıdır...***

- Azərbaycanın inkişafını təmin edən başlıca amillərdən biri müxtəlif sahələrdə səmərəli layihə və proqramların müvəffəqiyyətlə həyata keçirilməsidir. Sosial, iqtisadi, humanitar, təhsil və digər sahələrdə məqsədyönlü layihələr həyata keçirilir, mühüm nəticələr əldə edilir. Xüsusilə də, infrastruktur quruculuğu istiqamətində əhəmiyyətli nailiyyətlər qazanılıb. Bu istiqamətdə bir neçə nümunəyə nəzər salmaq məqsədəuyğundur. Məsələn, respublika ərazisində qazlaşdırma sahəsində aparılan genişmiqyaslı işlər nəticəsində ölkəmizdə əhalinin qazla təchiz edilməsinin 93 faizə çatdırılmasını xüsusi olaraq qeyd etmək lazımdır. 2010-2017-ci illərdə Azərbaycan ərazisində yaşayış məntəqələrinin genişmiqyaslı yeni qazlaşdırılma tədbirləri nəticəsində respublikanın 1416 yaşayış məntəqəsi təbii qazla təmin edilib. 2009-cu ilin iyul ayına qədər mövcud qaz şəbəkəsinin uzunluğu 10 min 536 kilometr təşkil edirdisə, 8 ilə yaxın vaxt ərzində 48 min 558 kilometr yeni qaz kəmərləri çəkilib, 9 min 101 kilometr müxtəlif diametrli qaz xətləri yenidən qurulub, 29 ədəd qazpaylayıcı stansiya və qaztənzimləyici məntəqə quraşdırılıb. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər sırasında bölgələrin qazlaşdırılması ilə bağlı layihələrin də önəmi xüsusi vurğulanmalıdır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması, həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən "mavi yanacaq"la təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində respublikanın qaz təchizatı şəbəkəsi genişləndirilir və müasirləşdirilir. Regionlarda da qazlaşdırma və qaz təminatının bərpası istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilir.

Əhalinin içməli su ilə fasiləsiz təmin olunması istiqamətində də davamlı tədbirlər həyata keçirilir. Diqqətə çatdırmaq istəyirəm ki, 2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz olub. İndi bu göstərici 67 faizə çatıb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Son 14 il ərzində Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları tikilib, bu da kənd təsərrüfatının inkişafı üçün mühüm meliorativ tədbirlər sırasında yer alır. Bundan başqa, son 14 ildə respublika üzrə 2500 meqavat gücündə 30 yeni elektrik stansiyası tikilib. Həmçinin 2004-cü ildən etibarən respublikamızda 12 min 300 kilometr yol çəkilib, 443 körpü tikilib. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə yol-nəqliyyat infrastrukturunun müasir standartlar səviyyəsində yenidən qurulması Azərbaycanın tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib, regionlarda daxili yük və sərnişin daşımalarının artmasına, həmçinin rahatlığın təmin olunmasına müsbət təsir göstərib. Yəni son 14 ildə ölkə miqyasında infrastruktur layihələri uğurla həyata keçirilib. Bu isə vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə xidmət edib, ölkəmizin inkişafının daha da sürətlənməsinə təkan verib.

***- Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə diqqət mərkəzində olan başlıca məsələlərdən biri regionların sosial-iqtisadi inkişafı olub. Bu sahədə görülən işlər və əldə edilən nəticələri necə qiymətləndirirsiniz?***

- Ölkəmizin inkişaf dinamikasında regionların özünəməxsus yeri var. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində həyata keçirilən tədbirlər bu sahədə mühüm uğurların əldə edilməsini şərtləndirib. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı davamlı xarakter daşıyır və son 14 il əldə edilən nailiyyətlər bunu təsdiqləyir. Azərbaycanda 2004-cü ildən həyata keçirilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları bölgələrin sürətli inkişafını təmin etməklə yanaşı, infrastrukturun yenilənməsində də əsaslı rol oynayır. Son 14 ildə respublikamızın inkişafında regionlarda aparılan yenidənqurma, quruculuq-abadlıq işləri, yeni məktəblərin, səhiyyə ocaqlarının, gənclər mərkəzlərinin və bu qəbildən olan digər sosial təyinatlı obyektlərin qurulması, yenilənməsi mühüm əhəmiyyət daşıyır.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramları bölgələrin tarazlı inkişafına təmin edib. Dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində yeni yollar çəkilib və ya yenidən qurulub, çoxlu sayda körpülər, yol qovşaqları tikilib, kommunal infrastruktur daha da yaxşılaşdırılıb, rabitə və digər xidmətlərin səviyyəsi yüksəlib, çoxsaylı sənaye, kənd təsərrüfatı, xidmət, ticarət müəssisəsi fəaliyyətə başlayıb. Məlumdur ki, ötən müddət ərzində regionların sosial-iqtisadi inkişafına dair 3 Dövlət Proqramı hazırlanıb və 2-si artıq uğurla həyata keçirilib. Hər 2 dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi nəticəsində yerlərdə istehsal və emal potensialı gücləndirilib. Hazırda isə üçüncü Dövlət Proqramı icra edilir. Əvvəlki illərdə yaradılan baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas oldu. Hazırda, qeyd etdiyim kimi, yeni Dövlət Proqramı böyük müvəffəqiyyətlə yerinə yetirilir.

***- Malik müəllim, qazanılmış bu möhtəşəm nailiyyətlər seçkilərin nəticələrində özünü necə göstərəcək?***

- Sadaladığımız möhtəşəm nailiyyətlər deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli, dinamik və dayanıqlı inkişaf yolu keçib. Ötən dövrün mənzərəsi onu göstərir ki, Azərbaycan inkişaf edir, qazanılan nailiyyətlər isə ölkəmizin gücü və qüdrətinin daha da artmasını şərtləndirir. Buna görə də Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir və bu siyasətin ölkəmizin inkişafına, sabitlik və firavanlığa xidmət etdiyini əminliklə ifadə edir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət bundan sonra da ölkəmizin uğurlu inkişafını təmin edəcək, qarşıdakı dövrdə ölkə iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf edəcək, qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm nəticələr əldə olunacaq. Nəticə etibarilə, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatlar ölkəmizin gələcək inkişafı baxımından böyük əhəmiyyətə malikdir. Bu səbəbdən əminliklə demək olar ki, xalqımız inkişaf və sabitliyin davamlı olması üçün cənab İlham Əliyevə səs verəcək.






## Cəlilabad şəhərində çoxminli seçicilərin iştirakı ilə "İlhamla İrəli" devizi altında mitinq-konsert keçirilib

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə aprelin 3-də Cəlilabad şəhərində çoxminli seçicilərin iştirakı ilə "İlhamla İrəli" devizi altında mitinq-konsert təşkil olunmuşdur.

Mitinq-konserti giriş sözü ilə Prezidentliyə namizəd cənab İlham Əliyevin seçki qərərgahı Cəlilabad şöbəsinin rəhbəri, YAP -ın rayon təşkilatının sədri cənab Mirsüleyman Mirxaslı açmışdır. O qeyd etmişdir: "Aprelin 11-i ölkəmizdə ümummilli bayram günü - ölkə başçımızın seçkisi günüdür. Bilməyən yoxdur ki, bu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi, xalqın nəmizədi, Prezident İlham Əliyevdir. Bilməyən yoxdur ki, xalqımızın mütləq əksəriyyəti yenidən öz etimadını məhz ona - öz gerçək Liderinə göstərmək əzmindədir.

Ölkəyə 15 il rəhbərlik etmiş, bütün biliyini, enerjisini, əməyini vətəninin çiçəklənməsinə, xalqının rifahına həsr etmiş bir şəxsiyyətin qiyməti başqa cür ola bilməz."

Tədbirdə YAP Siyasi Şurasının üzvlərindən MM-in deputatı Mirkazım Kazımov, Bakı Ali Neft məktəbinin rektoru Elmar Qasımov, millət vəkili Malik Həsənov, Muharibə, Əmək və Silahlı quvvələr veteranları təşkilatının sədr müavini Cəlil Xəlilov çoxminli seçicilər qarşısında çıxış edərək cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün sahələrdə qazanılmış uğurlar barədə ətraflı məlumat verməklə, rayonun seçicilərini 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə cənab İlham Əliyevə səs verməyə dəvət etmişlər.

Tədbirin bədii hissəsində respublikanın tanınmış incəsənət ustalarından Yusif Mustafayev, Ağadadaş Ağayev, Əflatun Qubadov, Teymur Mustafayev, Elçin Hüseynov, Yaşar Cəlilov, Səbinə Ərəbli, Aydın Sani, Nazənin Orxan, Könül Məmmədli, Orxan Lökbatanlı, Rəşad Dağlı, Gülay Zeynallı və digər sənətçilər seçicilər qarşısında maraqlı proqramla çıxış etmişlər.

## 150 min orta məktəb müəlliminin maaşı iki dəfə artırılıb

"2014-cü ildən indiyədək Azərbaycanın orta məktəblərində çalışan 150 min müəllimin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılıb, onların əmək haqları iki dəfə artırılıb". SİA-nın xəbərinə görə, bunu təhsil nazirinin müavini Firudin Qurbanov deyib.

Nazir müavini qeyd edib ki, ucqar kəndlərdə çalışan müəllimlərin əmək haqlarının artırılması, onların kommunal xərclərinin qarşılanması istiqamətində də Nazirlər Kabineti tərəfindən tədbirlər həyata keçirilir.

# Əli Kərimlinin Kaninon Seyfəddinlə əlaqələri üzə çıxdı

*Ermənıyə dayı deyənlər Londonda "Daymon Serç Trend Market" Məhdud Səhmdar Cəmiyyəti yaradıblar*

**Bu gün siyasi arenada diqqət çəkən maraqlı məqamlardan biri də müxalif partiyalar daxilində ciddi qarşıdurmaların yaranması fonunda növbəti qopmaların baş verməsidir. Bu baxımdan, siyasi ekspertlər 11 aprel prezident seçkilərindən sonra seçkiləri boykot etmək kimi lüzumsuz taktikadan istifadə edən və eyni zamanda, uğursuz aksiyalarla özlərini son dərəcə rüsvayçı duruma salan AXCP və Müsavat kimi cəmiyyətdə nifrət obyekti olan partiyaların fəaliyyətlərini dayandırmağa məcbur olacaqlarını iddia edirlər.**



Bəs səbəb nədir? Niyə müxalifət partiyaları formalaşa bilmir? Məsələyə geniş münasibət bildirməzdən əvvəl, onu qeyd etmək lazımdır ki, bugünkü dağıdıcı müxalifət heç də müstəqil deyil. Yəni partiya sədrlərinin əlləri hansısa xarici qüvvələrin ciblərindədir. Atdıqları addımlar, verdikləri qərarlar "əl əli yuyar, əl də dönüb üzü yuyar" prinsipinə əsaslanır. Araşdırmalara və ekspertlərin konkret faktlarına əsaslanaraq, demək olar ki, AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, "MSDM"ın sədri İsa Qəmbər və "Milli Şura"nın sədri Cəmil Həsənli erməni lobbisi ilə və ya erməni diaspora təşkilatlarına bağlı olan qüvvələrlə daha çox iş birliyi qururlar. Məhz erməni lobbisindən aldıqları maliyyə yardımlarına görə, dağıdıcı müxalif ünsürlər ermənilərin işğalçılıq siyasətlərindən danışmaqdan yayınır, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verir, məqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik edirlər. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar. Məhz bu kimi faktlardan çıxış edən "Müasir Müsavat" Partiyasının sədri Hafiz Hacıyev Ə.Kərimli, A.Hacılı, C.Həsənli, İ.Qəmbər və digər dağıdıcı partiya sədrlərinin fəaliyyətlərinin araşdırılmasına zərurət olduğunu bildirib: "Bu adamların fəaliyyəti ciddi şəkildə araşdırılsa, kifayət qədər cinayət əməlləri üzə çıxar. Ə.Kərimli öz liderini zəhərləyib öldürən adamdır. Elçibəy xəstə yatağında olanda, Ə.Kərimli "Azadlıq" qəzetində onun ünvanına qeyri-etik yazılar yazdırırdı. Elçibəyin cənazəsi gələn gün Ə.Kərimlinin sifarişi ilə "Azadlıq" qəzetinin manşetində onu təhqir eləmişdilər. İndi belə bir adamdan nə gözləmək olar? Ə.Kərimli də, İ.Qəmbər də xarici qüvvələrə işləyirlər, ordan maliyyə dəstəyi alırlar və bu yolla ölkədə qarışıqlıq salmağa çalışırlar. Hesab edirəm ki, radikal müxalifətin xariclə əlaqələri, bank hesabları, yaxın ətrafının maliyyə qaynaqları da araşdırılmalıdır. Əgər dərindən araşdırma aparılsa, onları həbsə atmaq üçün kifayət qədər əsas tapmaq olar".

## Elnur Seyidovla iş birliyi Əli Kərimliyə 15 milyon dollar məbləğində qazanc gətirib

Əldə etdiyimiz dəlil və sübutlara görə, Ə.Kərimli xarici maraqlı dairələrlə geniş iş birliyi qurmaqla yanaşı, yaxın ətrafını Azərbaycanda müxtəlif siyasiləşmiş QHT-lərə, banklara yerləşdirməklə də külli miqdarda maliyyə vəsaitləri əldə etmək imkanları da qazanıb. Xüsusilə də, onun qaynı Elnur Seyidovla qurduğu iş birliyi hesabına əldə etdiyi milyonlar şaşırdıcı olmaqla yanaşı, bu şəxsin maliyyə maxinasiyaları həyat keçirmək də, xüsusi istedada malik peşəkar dələduz olduğunu da sübuta yetirir. Belə ki, Ə. Kərimlinin həyat yoldaşı Samaranın qardaşı Elnur Seyidov "Texnika" Bankın Yasamal rayon filialının müdiri olduğu zaman Ə.Kərimlinin tapşırığı əsasında, ümumilikdə, 15 milyon manat dövlət vəsaitlərini mənimsəyib. E.Seyidovun bacısı Aytən Seyidova həmin vəsaitlərin hesabına Londonda yaşayan bacısı Samara Kərimli ilə birlikdə biznes qurub, Londonun mərkəzində, əsasən, gözəllik salonu, parfümeriya mağazası və qızıl-zinyət əşyaları mağazası açıblar.

## Kərimli otel biznesində

Əldə etdiyimiz sənədlərə görə, Ə.Kərimlinin baldızı Aytən Seyidova Londonda yaşayan ərəb mənşəli Kaninon Seyfəddin adlı birinə ərə gedib. K.Seyfəddin Londonda otel biznesi ilə məşğul olur. Ə.Kərimlinin sifarişi və ayırdığı maliyyə hesabına A.Seyidova otellər şəbəkəsinin yaradılmasına nail olub. Biznes şəbəkəsini bir qədər də genişləndirən Seyidovlar Kaninon Seyfəddinlə birgə "Daymon Serç Trend Market" Məhdud Səhmdar Cəmiyyəti yaradıblar. Şirkət qızıl-briliant satışı ilə məşğuldur. "Daymon Serç Trend Market" Məhdud Səhmdar Cəmiyyətinin tərəfdaşları sırasında xüsusi yeri erməni lobbisinin idarə etdiyi otellər şəbəkəsi tutur. Bu iş birliyi sayəsində erməni lobbisi Seyidovaların bəzi sahələrə investitsiya qoyuluşuna yardımlar göstərirlər.

Redaksiyamızın poçtuna göndərilən məlumata görə, həm də məlum olur ki, Ə.Kərimlinin ailə qurduğu Tunisdən olan ərəb mənşəli Kaninon Seyfəddinin ana tərəfi də ermənidir. Elə buna görə də, Londonda ermənilərlə iş birliyi qurub, Fransa, İtaliya, Rusiya kimi dövlətlərlə müqavilələr bağlayıb, vətəndaşları cəlb edirlər ki, bu yolla da siyasi oyunbazlıqla məşğul olsunlar: "Ə.Kərimlinin oğlu Türkel də xalası A.Seyidovanın yanında, ərəb Kaninon Seyfəddinlə birgə çalışır və otel biznesi ilə məşğuldurlar. İş orasıdır ki, sənədləşmələrdəki pay bölgüsündə, hər kəsə 35 faiz olmaqla, A.Seyidova, K.Seyfəddin və Ə.Kərimli də var. Bu otellərdə Azərbaycan əleyhinə böhtan və şantaj xarakterli görüşlər və tədbirlər keçirilir. Əksər hallarda tədbirlərin təşkilatçıları ermənilər olur. Ermənilərin təsiri altına düşən bu ünsürlər onlarla iş birliyinə qoşulublar".

## Əli Kərimli ancaq sifariş yerinə yetirir

Faktlar sübut edir ki,. Türkel də xalası da, dolayısı ilə Ə.Kərimlinin özü də ermənilərlə iş birliyi qurublar, vəsaitləri də onlardan alırlar. Ə. Kərimlinin oğlu Türkel erməni qarışığı olan ərəb mənşəli Kaninon Seyfəddinlə erməni lobbisi ilə iş birliyindən qazandığı vəsaitləri həm ölkə hüdudlarından kənarda Azərbaycan əleyhinə təbliğata xərcləyir, həm də Azərbaycana, öz atasına göndərir ki, ermənilərin ölkəmiz əleyhinə çirkli siyasəti atasının təşkilatçılığı ilə yerinə yetirilsin. Ə.Kərimli də, ermənilərdən aldığı vəsaitlərin hesabatını vermək məqsədi ilə mitinqlər təşkil edir, şəkillərini çəkib, həmin erməni lobbilərinə, iş birliyində olduğu düşmən qüvvələrə göndərir ki, aldığı vəsaitlərin hesabatını versin.

Fikir verin, dağıdıcı müxalifətin xüsusilə də, Ə.Kərimlinin xisləti maliyyə yardımları əldə etmək xatirinə, milli və dövlətçilik maraqlarını satmaqdır. Bu baxımdan, bir daha əminliklə demək olar ki, xalqdan ayrı düşən dağıdıcı müxalifətin sağlam fəaliyyət yolu tutması və ya fəaliyyət göstərməsi mümkün deyil. Partiya sədrlərinin yeniləri ilə əvəzlənməsi də heç nəyi dəyişməyəcək. Çünki indiki partiya liderlərinin qərəzli təbliğatları ilə zəhərlənən sədrliyə yeni namizədlər postlarında oturduqdan sonra xələflərindən fərqli siyasət aparacaqları inandırıcı deyil. Bu baxımdan, hazırkı müxalif partiyaları fəaliyyətlərini dayandıra və ya başqa partiyalara transfer olunana qədər, bu cür zəif və gücsüz formada siyasi arenada adları çəkiləcək.

**İ.ƏLİYEV**

# Almaniyanın ZDF telekanalı Ermənistan reallığını ifşa etdi

***Almaniyanın ictimai televiziyası olan ZDF müasir Ermənistanın ağır vəziyyəti və mövcud reallığı barədə reportaj hazırlayıb. "Soyqırımı, Dağlıq Qarabağ müharibəsi - insanlar bu kimi mövzuları Ermənistanla əlaqələndirirlər. Lakin gündəlik həyat bu cürdür: korrupsiyalaşmış siyasilər, tam yoxsulluq. Gənclər kütləvi şəkildə ölkəni tərk edirlər"-deyə reportajda qeyd olunur.***



ZDF-in reportajında daha sonra bildirilir: "Bir müddət öncə, aparılan araşdırmaların nəticələrinə görə, demək olar ki, erməni gənclərinin 2/3-si minimum zaman kəsimində öz ölkəsini tərk etmək barədə fikirləşirlər. Onlar ölkələrinin siyasi, sosial və iqtisadi vəziyyətindən pəjmürdə olublar. Rəsmi statistikaya görə, ölkə əhalisinin 30%-i səfilliyin və yoxsulluğun ən ağır vəziyyətini yaşayırlar. Real rəqəmər isə, çox yəqin ki, daha artıqdır".

## "Transparency International"ın korrupsiya indeksi: "Ermənistan Efiopiya, Makedoniya, Vyetnamla birgə 107-ci yerdə qərarlaşıb"

"Transparency International"ın korrupsiya indeksinə görə, Ermənistan Efiopiya, Makedoniya, Vyetnamla birgə 107-ci yerdə qərarlaşıb. İqtisadiyyat bir neçə oliqarxın əlindədir: kimlər ki, hakim elitanın qohumu, yaxını deyilsə, biznes şansı, demək olar ki, yoxdur. Bundan əlavə, ölkədəki məhkəmə sistemi asılı vəziyyətdədir - investorlar üçün öldürücü milksdir. Hər seçkilərdən sonra seçki saxtakarlıqları ətrafında ittihamlar səsləndirilir. Seçici siyahılarına kütləvi şəkildə ölmüş insanların adları daxil edilir. Sual: "Baba, əgər sən seçkilərə görə bilərəkdən dirilmisənsə, bu zaman nəyə görə bizi də ziyarət etmirsən?" -Ermənistanda ən çox səslənən seçki ifadələrindən biri də budur"-ZDF-in reportajında bildirilir.

## SSRİ-nin süqutundan sonra Ermənistan 16-30 yaş arası milyondan çox insan itirib!

Sözügedən reportajda daha sonra qeyd olunur: "Nə qədər insanın ölkəni tərk etdiyini təxmin etmək olar: hökumət il ərzində 30-40 min insanı göstərir. Əsas kütlə Rusiyaya köçür. SSRİ-nin süqutundan sonra Ermənistan 16-30 yaş arası milyondan çox insan (əhalinin 3-dən biri!) itirib. Bununla yanaşı, ölkə öz gələcəyini də əldən verib". "Mümkündür ki, bu kimi nəticə hakimiyyətin də əlinə oynayır - axı yaxşı təhsil almış gəncliyin simasında ölkə, eyni zamanda, potensial inqilabçıları da özündən uzaqlaşdırır"-deyə Almaniyanın ictimai televiziyasında qeyd olunur.

ZDF, həmçinin, Ermənistanın geostrateji vəziyyətini "qorxulu yuxu" olaraq təsvir edir. Belə ki, bu, ölkənin Türkiyə və Azərbaycanla sərhədlərinin bağlı olması ilə əlaqələndirilir.

***Rövşən RƏSULOV***

# "AppLab" proqramının iştirakçıları gənc developerin uğur hekayəsini dinləyib



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell özünün innovativ "AppLab" inkişaf və inkubasiya proqramının iştirakçıları ilə ölkənin ən uğurlu gənc developerlərindən və startap yaradıcılarından biri olan Toğrul Səmədin görüşünü təşkil edib. Toğrul Səməd və onun komandası 21 ölkə üzrə "Appstore"nin "Ən yaxşı yeni oyunlar" kateqoriyasına daxil edilmiş və "Google Play"də 5 milyon dəfədən çox yüklənmiş məşhur "Fatal Fight" mobil oyununun müəllifidir. Qısa bir vaxt ərzində populyarlaşan oyun sonradan "İtech Media Solutions" şirkətinə satılıb və Çinin Android marketində (TapTap) "Top 1" mobil oyun adına layiq görülüb.

Toğrul Səməd həmçinin "Buglance" crowdtesting platforması və "Tado Cafe" kimi digər uğurlu startapların müəllifidir. "AppLab" mərkəzindəki görüş zamanı Toğrul öz uğur hekayəsini danışıb və gənclərə uğurlu startapın və biznesin başlanılması və idarə edilməsinə dair mühüm tövsiyələr verib.

Xatırladaq ki, "AppLab" layihəsinin iştirakçıları şirkətin "AppLab" Mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim imkanları ilə yanaşı üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. "AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. "AppLab" Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

İnnovasiya sahəsində lider olan Bakcell gənc nəslin nümayəndələrinə inkişaf imkanları, məsləhətlər və hətta innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan dəstəyi göstərməyə hazırdır.

# Prezidentliyə namizədəlrin seçki hüququ və vəzifələri

**_Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Azərbaycan Respublikası Seçki Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2003-cü il tarixli Fərmanına uyğun olaraq hazırlanmış təlimat prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin, siyasi partiyaların və siyasi partiyalar bloklarının xüsusi seçki hesablarının açılması və aparılması qaydalarını müəyyən edir._**

"Seçki hüququna dair praktikum" kitabında göstərilir ki, pezidentliyə namizədlər və ya onların səlahiyyətli nümayəndələri Mərkəzi Seçki Komissiyasına bildiriş təqdim etdikdən və ya siyasi partiyalar, siyasi partiyaların bloku tərəfindən namizəd irəli sürülməsi haqqında müvafiq qərarı təqdim etdikdən sonra, lakin namizədlərin qeydə alınmaq üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi gününə azı 5 gün qalmış seçki fondunu formalaşdırmaqdan ötrü xüsusi seçki hesabı açmalıdırlar. Prezidentliyə namizəd irəli sürülməsi barədə Mərkəzi Seçki Komissiyasından alınan sənəd əsasında, Seçki Məcəlləsinin 53-cü və 54-cü maddələrində göstərilən sənədlər əlavə edilməklə, Birləşmiş Universal Səhmdar Bankında xüsusi seçki hesabı açır.

Bunun üçün prezidentliyə namizədlər, qeydə alınmış prezidentliyə namizədlər, siyasi partiyaların və siyasi partiyalar blokları müvafiq banka müraciət edib, aşağıdakı sənədləri təqdim etməlidirlər:

- xüsusi hesabın açılması üçün ərizə;

- prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin və ya onların səlahiyyətli nümayəndələrinin şəxsiyyətini təsdiq edən sənəd;

- notariat qaydasında təsdiq edilmiş imza nümunəsi (xüsusi hesabın açılması və xüsusi seçki fondunda olan pul vəsaitlərindən istifadə namizəd tərəfindən başqa şəxsə həvalə edildikdə, həmin şəxsin imzasının notariat qaydasında təsdiq edilmiş surəti).

Rəsmiləşdirilmiş sənədlər təqdim edildikdə, müvafiq bank namizədə 3 gün müddətində xüsusi seçki hesabı açmalıdır. Hesabın açılmasına və hesab üzrə əməliyyatlara görə haqq alınmır, hesabda olan pul vəsaitindən istifadəyə görə banka faiz ödənilmir. Bütün pul vəsaiti xüsusi seçki hesabına manatla köçürülür.

Prezidentliyə namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar və siyasi partiyaların blokları yalnız bir xüsusi hesab aça bilərlər.

Müvafiq bank, həftədə bir dəfədən az olmamaq şərti ilə, səsvermə gününə 10 gündən az müddət qaldıqda isə, 3 bank günü ərzində bir dəfədən az olmamaq şərti ilə, Mərkəzi Seçki Komissiyasına prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin xüsusi seçki hesablarına daxil olan və xərclənən vəsaitlər barədə bu Təlimatın 2 saylı əlavəsinə uyğun formada məlumat verir.

Prezidentliyə namizədlərin seçki fondu məbləğinin yuxarı həddi seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan minimum əmək haqqının 200 min mislindən çox ola bilməz. Namizədin qeydə alınması üçün müvafiq seçki komissiyasına seçki sənədləri təqdim edilərkən, eyni zamanda, qeydiyyatı həyata keçirən seçki komissiyasının hesabına (yəni Mərkəzi Seçki Komissiyasının hesabına) seçki fondunun yuxarı həddinin 3 faizi məbləğində könüllü qeydiyyat depozitinin köçürülməsi barədə bank sənədi təqdim edilə bilər. Qeydiyyat depozitinin seçki komissiyası tərəfindən geri qaytarılması halları Seçki Məcəlləsinin 60.5-ci maddəsi ilə müəyyən edilir.

Prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin, siyasi partiyaların və siyasi partiyalar bloklarının seçki fondlarında cəmləşən vəsaitlərdən yalnız Seçki Məcəlləsinin 90-cı maddəsinin 3.1, 3.2 və 3.3-cü bəndlərində müəyyən edilmiş məqsədlər üçün istifadə edilə bilər.

Namizədlərə, qeydə alınmış namizədlərə təşviqat və imzaların yığılması üçün seçki fondlarına daxil olan vəsaitdən başqa, digər pul vəsaitindən istifadə etmək qadağandır.

Xüsusi seçki hesablarına vəsaitlər yalnız Seçki Məcəlləsinin 191-ci maddəsində göstərilən məbləğdə və göstərilən şəxslər tərəfindən köçürülə bilər.

Yalnız Azərbaycan Respublikasının vətəndaşları olan fiziki şəxslər tərəfindən könüllü ianələr Seçki Məcəlləsinin 93.1-ci maddəsində müəyyənləşdirilmiş qaydada köçürülə bilər.

Hüquqi şəxslərin ianələri yalnız nağdsız qaydada xüsusi seçki hesablarına Seçki Məcəlləsinin 93.2-ci maddəsində göstərilən şərtlər nəzərə alınmaqla qəbul edilir.

Vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri xüsusi seçki hesabına rabitə şöbələri və ya bank-kredit təşkilatları vasitəsilə müvafiq ödəniş sənədi alındıqdan sonra növbəti bank günündən gec olmayaraq köçürülür. Bu halda, nağdsız ödənişin həyata keçirilməsinin ümumi müddəti 2 gündən artıq ola bilməz.

Prezident seçkiləri zamanı prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin aldıqları pul vəsaitlərinin geri qaytarılmasının qaydaları Seçki Məcəlləsinin 90.5-90.7-ci maddələri ilə müəyyən edilir.

Prezidentliyə namizədlərin, qeydə alınmış prezidentliyə namizədlərin seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaitini Mərkəzi Seçki Komissiyasının yazılı göstərişinə uyğun olaraq, müvafiq bank səsvermə günündən 60 gün keçdikdən sonra onun hesabına köçürməlidir.

Səsvermədə iştirak etmiş, lakin seçicilərin ümumi sayının 5 faizdən az səsini toplamış qeydə alınmış prezidentliyə namizəd Mərkəzi Seçki Komissiyasının onun seçki fonduna köçürdüyü pul vəsaitini səsvermə günündən sonra 30 gün müddətində tam həcmdə Mərkəzi Seçki Komissiyasının hesabına köçürməlidir.

Səsvermədə iştirak etmiş və seçicilərin ümumi sayının azı 5 faizinin səsini toplamış qeydə alınmış prezidentliyə namizəd və ya seçilən sayılmış, habelə, səsvermə günunədək Seçki Məcəlləsinin 73.3-cü maddəsində göstərilən məcburedici hallara görə namizədliyini geri götürmüş qeydə alınmış prezidentliyə namizəd səsvermə günündən 30 gün müddətində, onun seçki fonduna Mərkəzi Seçki Komissiyasının köçürdüyü vəsaitin xərclənməmiş hissəsini həmin seçki komissiyasına qaytarmağa borcludur. Bu müddət başa çatdıqda, müvafiq bank Mərkəzi Seçki Komissiyasının məktubunda göstərilmiş pul vəsaitini mübahisəsiz qaydada komissiyanın hesabına köçürməlidir.

Adıçəkilən kitabda qeyd edilir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsi, seçki komissiyasının səlahiyyət müddətində onların fəaliyyətinin təmin edilməsi xərcləri dövlət büdcəsi hesabına həyata keçirilir.

Seçkilərin hazırlanması və keçirilməsi üçün ayrılmış büdcə vəsaitinin uçotu seçki komissiyaları tərəfindən aparılır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, onun sərəncamına daxil olan pul vəsaitinin tam hüquqlu sərəncamçısıdır. Mərkəzi Seçki Komissiyasına daxil olmuş pul vəsaitləri səsvermə gününə ən geci 90 gün qalmış dairə seçki komissiyalarına köçürülür, onlar isə, öz növbəsində, bu vəsaiti səsvermə gününə ən geci 10 gün qalmış məntəqə-seçki komissiyaları arasında bölüşdürür.

Pul vəsaitləri seçki komissiyaları arasında hər bir ərazinin inzibati və sosial-iqtisadi göstəriciləri nəzərə alınmaqla bölüşdürülür.

Seçki komissiyalarının sədrləri müvafiq seçki komissiyalarına ayrılmış pul vəsaitlərinin sərəncamçısıdır və maliyyə sənədlərinin seçki komissiyasının qərarlarına uyğunluğu, məsrəflər haqqında maliyyə hesabatlarının Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə təqdim edilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.

Seçki komissiyaları tərəfindən xərclənməmiş dövlət vəsaiti seçki günündən ən geci 60 gün keçənədək dairə və məntəqə seçki komissiyalarının hesabından Mərkəzi Seçki Komissiyasının hesabına köçürülür və onun hesabında qalır. Bu vəsaitlər üzrə əməliyyatlar "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin tələbləri gözlənilməklə həyata keçirilir.

Prezidentliyə namizəd seçkiqabağı təşviqatı maliyyələşdirmək üçün Seçki Məcəlləsinin 91-ci və 190-cı maddələrinə müvafiq qaydada və müddətdə seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı açmalıdır. Prezidentliyə namizədin seçki fondu Seçki Məcəlləsinin 191-ci maddəsi ilə müəyyənləşdirilmiş həcmdə və həmin maddədə nəzərdə tutulmuş mənbələr hesabına yaradılmaqla, Birləşmiş Universal Səhmdar Bankında (və ya bankın filial və nümayəndəliklərində) xüsusi hesabda saxlanılır. Prezidentliyə namizədin seçki fondu məbləğinin yuxarı həddi seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan minimum əmək haqqının 200 min mislindən çox ola bilməz. Müvafiq qaydada rəsmiləşdirilmiş sənədlər təqdim edildikdən sonra bank namizədə xüsusi seçki hesabı açmalıdır. Seçki fondundakı vəsait təyinatlı məqsəd daşıyır. Bu vəsaitdən yalnız aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

* imza toplanmasına yönəldilmiş təşkilati-texniki tədbirlərin maliyyə təminatı, habelə, seçici imzalarının toplanması üçün müvafiq şəxslərə haqq ödənilməsi üçün;

* seçkiqabağı təşviqatla bağlı tədbirlərin, habelə, informasiya və məşvərət xidmətləri dəyərinin ödənilməsi üçün;

* hüquqi şəxslərin və vətəndaşların, bilavasitə yerinə yetirdikləri digər işlərin dəyərinin ödənilməsi ilə bağlı xərclər.

Səsvermədə iştirak etmiş və seçicilərin ümumi sayının azı 5 faizinin səsini toplamış qeydə alınmış prezidentliyə namizəd və ya seçilən sayılmış, habelə, səsvermə günunədək Seçki Məcəlləsinin 73.3-cü maddəsində göstərilən məcburedici hallara görə namizədliyini geri götürmüş qeydə alınmış prezidentliyə namizəd səsvermə günündən sonra 30 gün müddətində Mərkəzi Seçki Komissiyasının onun seçki fonduna köçürdüyü vəsaitin xərclənməmiş hissəsini qaytarmağa borcludur. Bu müddət başa çatdıqda, müvafiq bank Mərkəzi Seçki Komissiyasının məktubunda göstərilmiş vəsaiti mübahisəsiz qaydada onun hesabına köçürməlidir.

Seçkilərin hazırlanması və keçirilməsi üçün ayrılmış büdcə vəsaitinin, həmçinin, namizədlərin, qeydə alınmış namizədlərin seçki fondunun uçotu Mərkəzi Seçki Komissiyası tərəfindən maliyyə hesabatı formalarına uyğun olaraq, ayrı-ayrılıqda aparılır.

Dairə və məntəqə seçki komissiyalarına ayrılan vəsaitlərin və seçkilərin keçirilməsi ilə bağlı təsdiq olunan smetaya uyğun həyata keçirilmiş xərclərin xərc yarımmaddələri üzrə ayrı-ayrılıqda uçotunu və seçki fondları üzrə hər bir namizədin, qeydə alınmış namizədin Seçki Məcəlləsinin 191.2-ci maddəsində nəzərdə tutulmuş mənbələr üzrə gəlirlərinin və müvafiq tədbirlər üzrə xərclərin uçotunu Mərkəzi Seçki Komissiyası aparır.

Dairə seçki komissiyaları dairə və məntəqə seçki komissiyalarının seçkilərlə bağlı təsdiq olunmuş smetalarına uyğun surətdə həyata keçirilmiş xərclərin icrasının uçotunu hər bir xərc maddəsi üzrə aparır.

Mərkəzi Seçki Komissiyasının, dairə və məntəqə seçki komissiyalarının maliyyə hesabatları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 5 iyul 1998-ci il tarixli İ-62 saylı əmri ilə təsdiq edilmiş idarələrin xərclər smetasının icrası haqqında 2 nömrəli hesabat formasına uyğun tərtib olunur.

Məntəqə seçki komissiyaları dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə dairə seçki komissiyasına səsvermə günündən sonra 5 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq, maliyyə hesabatı təqdim edir. Hesabat məntəqə seçki komissiyasının sədri təsdiq edir.

Dairə seçki komissiyası dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə Mərkəzi Seçki Komissiyasına səsvermə günündən sonra 10 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq, maliyyə hesabatı təqdim edir. Hesabatı dairə seçki komissiyasının sədri təsdiq edir.

Dairə seçki komissiyası seçkilərin nəticələrinin rəsmi dərc edildiyi tarixdən başlayaraq, ən geci 10 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq, məntəqə seçki komissiyalarının icmal hesabatlarını və dairə seçki komissiyalarının hesabatlarını komissiyanın sədri və yerli xəzinədarlıq idarəsinin rəhbərliyi tərəfindən təsdiq olunmaqla, Mərkəzi Seçki Komissiyasına təqdim edir.

Prezidentliyə namizədlər, qeydə alınmış prezidentliyə namizədlər öz maliyyə hesabatlarını imzaları ilə təsdiq edərək, Seçki Məcəlləsinin 94-cü maddəsinin 3.1, 3.2 və 3.3-cü bəndlərində göstərilən qaydada, bu Təlimatın 2 saylı əlavəsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasına təqdim edirlər.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 4 aprel


## YAP-ın seçki kampaniyası Saatlı rayonunda uğurla davam edir





YAP Mərkəzi Seçki Qərargahı Saatlı rayon şöbəsinin üzvləri təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qarayevkənd, Mircəlal və Nəsimikənd kəndlərində seçicilərlə görüşlər keçiriblər . YAP Saatlı rayon təşkilatının sədri Lütfəli Şıxəliyev, YAP Mərkəzi Seçki Qərargahı Saatlı rayon şöbəsinin üzvləri Rahib Salahov və Mirkamal Qiyasov görüşlərdə çıxış edərək bildiriblər ki, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf siyasəti vətəndaş məmnunluğunu təmin edib. Çünki əhalinin rifah halı daha da yaxşılaşıb, ölkəmizin tərəqqisi insanların həyatında müsbət dəyişikliklərin meydana çıxmasına səbəb olub. Azərbaycanın dayanıqlı inkişafının mütəmadi xarakter daşıması insanların gələcəyə inamla və optimist baxmasına əsas yaradıb. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin alternativsiz olduğunu göstərir. Azərbaycan xalqı seçkilər vasitəsilə öz iradəsini ifadə edəcək və növbəti dəfə cənab İlham Əliyevə etimad göstərəcək. Xalqımız Azərbaycanın gələcək inkişafı naminə cənab İlham Əliyevə səs verəcək!

Görüşlərdə çıxış edən seçicilər bildiriblər ki, həmişə olduğu kimi, 11 aprel prezident seçkilərində də fəallıq göstərməklə xalqın ləyaqətli oğlu cənab İlham Əliyevə səs verəcəklər.

## TƏBRİK EDİRİK!

Fidanın 6 yaşının tamam olması münasibəti ilə nənələri Səbahət və Fəridə, babaları Eyvaz və Azər, anası Gülnarə, atası Araz, bibisi Mədinə, əmisi Xəzər, əmisi qızı balaca Dəniz səmimi qəlbdən təbrik edirlər, ona uzun ömür, can sağlığı və xoşbəxtlik arzulayırlar.



## ELAN

Bakı şəhəri İcra Hakimiyyəti Aparatı mənzil kooperativ təsərrüfat idarəsinin 23 aprel 1999-cu ildə 172 saylı mənzil tikinti kooperativinin üzvü Əhmədov Ziyafət Əli oğlunun ölümü ilə əlaqədar 114 saylı kooperativ mənzilin və payın həyat yoldaşı Əhmədova Padimat Hacı qızının adına keçirilməsi haqqında 48 nömrəli sərəncam itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu və audit fakultəsinin 4-cü kurs tələbəsi Fətəlizadə Aydan Vidadi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

07.03.2016-cı il tarixində 1201522711 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "TƏMİZ QAZ" Məhdud Məsuliyyətli Cəmiyyəti təşkilati hüquqi formasının dəyişdirilərək "TƏMİZ QAZ" qapalı səhmdar cəmiyyətinə çevrilərək yenidən təşkil olunduğunu elan edir.




R

## YAP Nərimanov rayon təşkilatında qadın seçicilərlə görüş keçirilib

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında qadın seçicilərlə görüş keçirilib.

Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin son illərdə qazandığı nailiyyətlərdən bəhs edib. T.Tağıyev bildirib ki, müasir dövlətimiz məhz bu siyasət nəticəsində inkişaf edir. O, Nərimanov rayon qadın seçicilərini Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməyə çağırıb.





YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova çıxış edərək bildirib ki, Azərbaycan qadını özünü heç vaxt ölkəmizdəki inkişaf proseslərindən kənarda hiss etməyib. Onun sözlərinə görə, qadınların hüquqlarının qorunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas prioritetlərindən biridir. M.İbrahimova qeyd edib ki, qadınlar prezident seçkilərində yaxından iştirak edərək xalqın namizədi olan cənab İlham Əliyevə səs verəcəklər.

Çıxış edən Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev vətəndaşlarının arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir: "Vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür, pensiyalar artırılır, yeni iş yerləri yaradılır. Artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycan mühüm üstünlüklər əldə edib. Bütün bunlar Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Bu uğurların davamı naminə hər bir seçici 11 apreldə keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevə səs verməlidir".

Tədbirdə YAP Nərimanov rayon təşkilatı Qadınlar Şurasının sədr müavini Məhbubə Məmmədova, 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının baş həkimi Mehriban İsayeva və fəal gənc Sara Abbasquliyeva çıxış edərək bildiriblər ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycanı regionun lider dövlətinə çevirib. Bu gün Azərbaycan İlham Əliyevin yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində dünyanın söz və nüfuz sahibi olan, hesablaşdığı dövlətlərdən biridir. Azərbaycan bu gün həm də dünyanın milli və dini tolerantlıq mərkəzidir. Yəni Azərbaycanımızın uğurları, nailiyyətləri, qələbələri, zəfərləri gündən-günə artmaqda və bunların davamı gəlməkdədir. Qeyd edilib ki, ölkə vətəndaşları, o cümlədən qadınlar bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək ən layiqli namizəd olan İlham Əliyevə səs verəcəklər.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**